

**“Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə, bax, bu istiqamətdə gedəcəyik.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*İyul - Sentyabr (2015-ci il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbayramov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 26.10.2015
60x84 1/8 formatda 74 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 1350 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2015

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir

**18** İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir

## RƏSMİ TƏDBİRLƏR

**19** Baş Prokurorluqda geniş əməliyyat müşavirəsi keçirilmişdir

**20** Vyetnam Sosialist Respublikasının Ədliyyə İslahatları üzrə Komissiyasının nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur

**21** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**24** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilmişdir

## İCTİMAİYYƏTƏ HESABAT

**26** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2015-ci ilin I yarımili ərzində görülmüş işlərə dair hesabat vermişdir

**29** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ixtisasartırma kursları təşkil edilmişdir

**30** Prokurorluq orqanlarına işə qəbul davam edir

**36** Gəncə şəhər prokurorluğunda müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasına dair seminar keçirilmişdir

**37** Cəlilabad rayon prokurorluğunun yeni inşa olunmuş inzibati binasının açılışı olmuşdur

**39** Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında seminarlar keçirilmişdir

## PROKURORLUĞUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**42** Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) Assambleyasının iclası keçirilmişdir

**43** Azərbaycanın nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının tədbirlərində iştirak etmişdir

**46** Astanada MDB-nin iştirakçısı olan dövlətlərin baş prokurorların əlaqələndirmə şurasının iclası keçirilib

**48** Vyetnam kommunistlərinin nümayəndə heyəti KQMBİ-də olmuşlar

**49** Malayziyada antikorrupsiya tədbiri keçirilmişdir

**50** Prokurorluğun işçiləri müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində Türkiyənin təcrübəsi ilə tanış olmuşlar

## NORMATİV HÜQUQİ AKTLAR

**53** Baş Prokurorluq üzrə normativ xarakterli akt

**56** Qanunvericiliyə dəyişikliklər

**70** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**



– Bu gün biz ənənəvi olaraq ilin altı ayının yekunlarını müzakirə edəcəyik. Bəri başdan demək istəyirəm ki, yekunlar çox müsbətdir. Azərbaycan uğurla inkişaf edir. İnkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır. Ona görə ki, bu gün biz dünyanın müxtəlif yerlərində çox xoşagəlməz prosesləri müşahidə edirik. Yaxın Şərqdə vəziyyət həddindən artıq çox gərginləşib. Qanlı toqquşmalar dayanmır, qan tökülür və yeni müharibə ocaqları yaranır. Avropa dərin iqtisadi böhran içindədir və bu böhrandan hələ ki, çıxış yollarını tapa bilməyib. Eyni zamanda, biz mənəvi böhranın təzahürlərini də görürük və bu, bizi çox narahat edir.

Azərbaycan artıq uzun illərdir çalışır ki, bölgədə multikulturalizm dəyərləri üstünlük təşkil etsin. Bölgədə sülh, əmin-amanlıq, mehriban qonşuluq meyilləri güclənsin və bildiyiniz kimi, Azərbaycan tərəfindən bu istiqamətdə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə çox önəmli addımlar atılır. Ancaq bununla bərabər, biz bəzi Avropa ölkələrində tam başqa mənzərəni görürük və bu, bizi narahat edir.

Mənəvi böhran, iqtisadi böhran bu gün artıq Avropada reallıqdır və əlbəttə ki, bu, bizi düşünməyə vadar edir və bu amilləri gələcək fəaliyyətimizdə mütləq nəzərə alacağıq. Azərbaycan Avropa qurumlarına nə dərəcədə inteqrasiya etməlidir? İnteqrasiya etməlidir, yoxsa etməməlidir? Yoxsa biz əmək-

daşlıq formatına üstünlük verməliyik? Bu barədə mən şəxsən artıq neçə vaxtdır düşünürəm və hesab edirəm ki, gələcək aylarda yeni əməkdaşlıq mexanizmi, formatı və konsepsiyası hazırlanmalıdır.

Əslində, bu barədə biz artıq önəmli addımlar atmışıq. Bildiyiniz kimi, Azərbaycan Avropa İttifaqı ilə Assosiasiya Sazişinə qoşulmamışdır. Ona görə ki, bu saziş bizim maraqlarımıza uyğun gəlmir. Orada sadəcə olaraq bir mexanizm təklif olunurdu ki, bu, ikitərəfli əməkdaşlıqdan çox birtərəfli əməkdaşlığa bənzəyirdi və elə bil ki, o saziş bir göstəriş vərəqəsi idi. Bizə isə bu, əlbəttə ki, yaramır. Çünki Azərbaycan bütün ölkələrlə, bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu münasibətlər qurur və biz fəaliyyətimizi bu prinsip üzərində davam etdiririk.

Digər məqamlar var idi ki, bizi qane etmirdi. Ona görə biz Avropa İttifaqına əməkdaşlıq təkliflərini irəli sürmüşük. Bu, tərəfdaşlıq müqaviləsi, strateji tərəfdaşlıq müqaviləsi ola bilər. Sadəcə olaraq, əməkdaşlıq, yaxud da ki, tərəfdaşlıq müqaviləsi ola bilər. Ancaq bu, bərabərhüquqludur və Azərbaycanın milli maraqları o sazişdə maksimum dərəcədə təmin olunmalıdır və dəyərlərimiz də əlbəttə ki, bizim üçün ən önəmli yerdədir.

Hesab edirəm ki, bu gün müasir dünyada mənəvi dəyərlər haqqında daha çox danışmaq lazımdır. Çünki həm Yaxın Şərqdə, həm Avropada, MDB məkanında yaşanan böhranlı vəziyyət, o cümlədən mənəvi dəyərlər üzərində yaranıb. Münaqişələr bir çox hallarda bu səbəbdən qaynaqlanır. Ona görə biz Azərbaycanda əlbəttə ki, bütün məsələləri dərindən təhlil edərək, ölkəmiz üçün, xalqımız üçün ən məqbul, ən yaxşı variantı seçirik və seçəcəyik.

MDB məkanında vəziyyət gördüyünüz kimi, o qədər də ürəkaçan deyil. Bir çox ölkələr böhranla bacara bilmirlər. Ukraynada böhran davam edir. Ermənistan demək olar ki, çöküb, iqtisadiyyatı çöküb. Ermənistanın kriminal diktatura rejimi artıq öz xalqını o qədər əzib ki, xalq buna dözə bilmir. Onu da qeyd etməliyəm ki, Ermənistan xuntası xalq hesabına varlanır. Bəlkə bir çoxları bunu bilmir. Ancaq Ermənistan dünya miqyasında bəlkə də xaricdən ən aşağı qiymətə qaz alan ölkədir. Ancaq öz əhalisinə bunu üç dəfə baha satır. Elektrik enerjisi də, yanacaq da həmçinin. Yəni, bu kriminal rejim xalqın qanını sorur. Əlbəttə ki, xalq buna dözə bilmir.

Belə bir mənzərə yaranıb. Yunanıstan böhranı hələ ki, davam edir. Hələ ki, heç bir nəticə əldə edilməyib. Əlbəttə, biz bilirik ki, vaxtilə Yunanıstanda müəyyən səhvlər buraxılmışdır və həddindən artıq borclanma getmişdir. Bunun da səbəbi yəqin ondan ibarətdir ki, siyasətçilər öz işlərinə o qədər də məsuliyyətlə yanaşmırdılar. Mən həmişə demişəm və bu gün də deyirəm, Azərbaycanda xarici dövlət borcumuz minimum səviyyədə olmalıdır, hazırda təqribən 10-11 faiz civarındadır. Biz onu daha da aşağı salmalıyıq. Biz borc götürə bilərik. Ancaq bu, bizə lazım deyil. Sabah bu, bizə problem yarada bilər.

Ona görə Yunanıstanla bağlı vəziyyət əlbəttə ki, bu səbəblərdən qaynaqlanır. Eyni zamanda, biz görürük ki, Avropanın bəzi ölkələri, xüsusilə özləri üçün xüsusi yer əldə etmək istəyən ölkələr Yunanıstanı, sadəcə olaraq, alçaldırlar. Xalqı, dövləti alçaldırlar. Bax, budur, bugünkü reallıqlar.

Mən bəzi hallarda dövlət məmurlarından, deputatlardan, ictimai xadimlərdən eşidirəm ki, biz Avropaya inteqrasiya etməliyik. Siz bunu deyəndə bir düşünün. Birincisi, Prezidentin mövqeyini bilməlisiniz. İkincisi, siz necə inteqrasiya edəcəksiniz, hansı formada inteqrasiya edəcəksiniz? Bu inteqrasiya sizə lazımdırmı, yoxsa yox? Hansı simada Azərbaycanı orada qəbul etmək istəyirlər? İkinci dərəcəli üzv kimi, assosiativ üzv kimi, yaxud da kənardan sanki yapışan bir ölkə kimi? Bu format bizə lazım deyil. Biz hara lazımdırsa

inteqrasiya etmişik. O illərdə etmişik ki, o vaxt Avropada vəziyyət fərqli idi. Mən hesab edirəm ki, əgər bu gün biz bu vəziyyəti nəzərə alaraq seçim etməli olsaydıq, bəlkə də Avropa Şurasına da üzv olmazdıq. Azərbaycanı nə qədər təhqir etmək olar? Bizi nə qədər alçaltmaq cəhdləri göstərilə bilər? Artıq bizim hövsələmiz tükənib. Biz Avropa Şurasız da yaxşı yaşaya bilərik, yaşamışıq da. 2001-ci ilə qədər yaşamışıq. O vaxt Azərbaycanda vətəndaş müharibəsi, erməni işğalı, siyasi böhran, iqtisadi tənəzzül yaşanırdı. Yaşamışıq, ölməmişik.

Biz oraya üzv olmuşuq ki, ilk növbədə Qarabağ problemi həll edilsin. Məsələ bunda idi. Biz bilirdik ki, Ermənistan Avropa Şurasına üzv olmağa can atır. Biz istəyirdik ki, biz də orada olaq və bu məsələ ədalətli şəkildə həll edilsin. Ancaq biz nəyi görürük: ədalətsizlik, ikili standartlar, islamafobiya, paxıllıq, bədniyyət. Bax, bu yaxınlarda Avropa Oyunları zamanı qətnamə qəbul edirlər. Qətnamənin məruzəçilər tərəfindən təklif edilmiş mətnində yazılmışdır ki, assambleya nəzərə alır ki, Azərbaycan torpaqları işğal altındadır. Götürüb o cümləni dəyişirlər, yazırlar ki, assambleya nəzərə alır ki, Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Yəni, bu, nə deməkdir?! Bu, açıq-aydın anti-Azərbaycan mövqeyidir. Ona görə, yenə də bu mövzuya qayıdıram. Biz heç yerə inteqrasiya olmuruq. Hara olmuşuq, kifayətdir. Lazım olarsa, yenə də başqa birliklərə də üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, ləyaqətli ölkə kimi.

Bax, dediyim bu mənzərənin fonunda bizim uğurlarımız doğrudan da tarixi xarakter daşıyır. Altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, baxmayaraq ki, neftin qiyməti aşağı səviyyədədir. Baxmayaraq ki, qonşuluqda iqtisadi vəziyyət hələ ki, o qədər də müsbətə doğru dəyişməyib, Azərbaycan iqtisadiyyatı inkişaf edir. Bax, indi gətirəcəyim rəqəmlər bunu göstərəcək və sübut edəcək ki, bu, doğrudan da tarixi nailiyyətdir. Beləliklə, 6 ayda iqtisadiyyat 5,7 faiz artmışdır. Bu, çox gözəl göstəricidir, ölkəmizin dinamik inkişafını sübut edir. Bundan da gözəl göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da biz 9,2 faiz artımı görürük. Yəni, bundan yuxarı nəticə ola bilməz. Sənaye istehsalı təxminən 4 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faizdən çox artmışdır. Bu da son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin, tədbirlərin nəticəsidir.

Azərbaycanda inflyasiya aşağı səviyyədədir – 3,5 faiz. Əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və 6,2 faiz artmışdır. Kənd təsərrüfatı 7 faizdən çox artmışdır, daha doğrusu, 7,3 faiz. Bu da son illər ərzində ən yüksək artım tempidir. Bu da görülən işlərin nəticəsində mümkün olmuşdur.

Ölkəmizə 6 ayda 12,7 milyard manat sərmayə qoyulmuşdur. Bu da çox böyük rəqəmdir və bu birinci 6 ayda xarici investisiyalar üstünlük təşkil edir. Son illərdə biz görürdük ki, daxili investisiyalar üstünlük təşkil edir. Bu ilin 6 ayında isə xarici sərmayə üstünlük təşkil edir. Bu da müsbət haldır, çünki yenə də göstərir ki, Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir və xarici sərmayə burada lazımi səviyyədə qorunur.

Birinci 6 ayda ölkəmizdə 60 minə yaxın yeni iş yeri açılmışdır ki, onlardan 48 mini daimi iş yeridir. Ancaq biz bu statistikaya fikir verəndə mütləq bağlanan iş yerlərini də diqqətdən qaçırmamalıyıq. Bilirəm ki, bəzi yerlərdə iş yerləri bağlanıb. Ona görə, ilk növbədə, bunun səbəbləri araşdırılmalıdır. Digər tərəfdən, bu, statistika da açılan iş yerləri ilə bərabər verilməlidir ki, biz təhlili düzgün aparaq. Bu, əslində hər bir ölkədə olan bir vəziyyətdir. İş yerləri açılır, bağlanır. Burada əsas balans məsələsidir, nə qədər açılıb, nə qədər bağlanıb.

Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki,

onlardan 1 milyonu daimi iş yeridir. Bunun hesabına Azərbaycanda işsizlik keçən ilin yekunlarına görə 5 faiz səviyyəsində olmuşdur. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla bağlı mübarizəni çox yüksək qiymətləndirir. Biz və Azərbaycan xalqı bunu gündəlik həyatda görürük. Hesab edirəm ki, iş yerlərinin açılması daimi proses olmalıdır, çünki əhali artır və potensial kifayət qədər böyükdür.

Sosial sahədə bütün proqramlar icra edilir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, bu, təbiidir. Biz büdcəni qəbul edəndə neftin qiymətini 90 dollardan hesablamışıq, əslində indi 60 dollar səviyyəsindədir. Bir neçə ay bundan əvvəl daha da aşağı səviyyədə idi, əlli dollardan aşağı düşmüşdü. Ancaq bütün sosial proqramlar vaxtında icra edilir və bu da siyasətimizin əlamətidir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik.

Ünvanlı sosial yardım proqramında çox müsbət dəyişikliklər baş vermişdir. Şəffaflıq təmin olunur, normal qayda-qanun yaradılır, xoşagəlməz hallara son qoyulur, korrupsiya ilə mübarizə ciddi aparılır və bunun hesabına artıq bu sahədə daha da sağlam vəziyyət yaranmışdır. Yerlərdən gələn məlumat da məni çox sevindirir, insanlar da bu müsbət dəyişiklikləri görürlər.

Beləliklə, məndə olan məlumata görə, ünvanlı sosial yardım alan insanların sayı təxminən 20 faiz azalmışdır. Nəyin hesabına? Ona görə yox ki, kiminsə yardımı kəsilib. Ona görə ki, yardıma ehtiyacı olmayan artıq bunu almır. 112 min ailə, 490 min insan bu yardımı alır və hər ailəyə orta hesabla təxminən hər ay 150 manat pul verilir. Bax, budur bizim sosial siyasətimiz və yanaşmamız.

Sosial infrastruktur yaradılır. Məktəblər, xəstəxanalar tikilir. İndi təxminən 20-dən çox məktəb, 30-dan çox tibb müəssisəsi təmir olunur, tikilir. Yəni, bu proses də gedir. Demək olar ki, biz bu sahədə əsaslı dönüş yarada bildik. Növbəti illərdə çalışmalıyıq ki, bir dənə də təmirsiz məktəb olmasın və hər bir yerdə, hər bir kənddə insanlar normal tibbi xidmətə malik olsunlar.

Yəni, sosial və iqtisadi vəziyyət bundan ibarətdir. Bu, bir daha onu göstərir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilər. Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var – regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatının inkişafı. Deyə bilərəm ki, kənd təsərrüfatının inkişafı üçün bu il çox önəmli addımlar atılmışdır. Bir neçə fərman imzalanmışdır ki, bu da kənd təsərrüfatının inkişafına xidmət göstərir. Məsələn, taxılçılıqda məhsuldarlıq böyük dərəcədə - təxminən 20 faiz artmışdır. Əvvəllər hektardan 22 sentner götürürdüksə, mənə verilən məlumata görə indi 30 sentner götürmüşük. Dövlətin dəstəyi ilə iri fermer təsərrüfatları yaradılır, meliorasiya tədbirləri, bütün aqrotexniki tədbirlər görülür, strukturlaşma prosesi gedir və şəffaflıq təmin edilir. Əlbəttə, gələcəkdə daha da ciddi işlər aparılacaq ki, həm məhsuldarlıq artsın, həm də biz torpaq fondumuzdan maksimum dərəcədə istifadə edək. Mən bu barədə fikirlərimi bir qədər sonra deyəcəyəm.

Ordu quruculuğu bizim üçün daim prioritetdir və Xəzər sahilində ən böyük hərbi obyektlərdən biri bu il Azərbaycanda istifadəyə verilibdir. Hərbi dəniz qüvvələri bazası yaradılmışdır. Bütün digər lazımi tədbirlər görülür, hərbi şəhərciklər, bazalar tikilir, təmir olunur, əsgərlər, zabitlər üçün gözəl şərait yaradılır. Təbii ki, silah-sursat, maddi-texniki təminat daim diqqət mərkəzindədir. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu, dediyim kimi, dünya miqyasında güclü ordular sırasındadır.

Bugünkü beynəlxalq vəziyyət bir daha onu

göstərir ki, biz vaxtilə nə qədər düzgün addımlar atmışıq. Çünki biz görürük ki, beynəlxalq hüquq normaları işləmir. Kimin gücü varsa, o da haqlıdır və bu, reallıqdır. Bu, xoşagəlməyən reallıqdır, ancaq biz real dünyada yaşayırıq, biz virtual dünyada yaşamırıq. Ona görə, hərbi güc gələcəkdə hər bir ölkənin maraqlarını ilk növbədə təmin edən amil olacaqdır. Çünki beynəlxalq hüquq normaları sadəcə olaraq belə çıxır ki, o qədər də böyük olmayan ölkələr üçün yazılıb. Beynəlxalq davranış qaydaları dəyişilir, kim necə istəyir beynəlxalq hüquq normalarını elə də yozur və nəticə etibarilə biz görürük ki, güc amili bir çox məsələləri həll edir. Biz də buna hazır olmalıyıq və hazırıq. Ona görə, gələcəkdə də ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi bir nömrəli vəzifə olacaqdır. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu, daha da ciddi diqqətə malik olmalıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində heç bir irəliləyiş yoxdur. Ermənistan sadəcə olaraq danışıqlar prosesini boykot edir və çalışır ki, bu məsələni maksimum dərəcədə uzatsın. Ancaq məsələ uzandıqca Ermənistan daha da çox tənəzzülə uğrayır. Qeyd etdiyim kimi, ölkə dərin siyasi, mənəvi, psixoloji və maliyyə böhranı içindədir. Ölkənin inkişafı üçün heç bir resurs yoxdur. İqtisadiyyat çöküb, sənaye ölüb, insanlar ölkəni tərk edir, yəni, insan resursları da yoxdur. Belə getsə gələcəkdə Ermənistan kimi ölkə bəlkə də dünya xəritəsində heç olmayacaq da. Əgər belə olarsa, bunun günahkarı ancaq bugünkü kriminal diktatura rejimidir.

Biz isə güclənirik, öz tədbirlərimizi görürük, iqtisadi, siyasi, hərbi güc toplayırıq. Əlbəttə ki, Ermənistan və Azərbaycan müqayisəedilməz səviyyədədir. Sadəcə olaraq, xarici maliyyə, hərbi və siyasi dəstək hesabına Ermənistan hələ ki, bizim torpaqlarımızı işğal altında saxlayır. Mən bu auditoriyada bir dəfə demişəm ki, bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, anti-Azərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş daş üstündə qalmaz. Bu da reallıqdır və yenə də deyirəm, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, biz bu istiqamətdə bütün hazırlıq işlərini görürük.

Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz. Onu da deməliyəm ki, – Azərbaycan ictimaiyyəti də bilir, – bizə qarşı çox çirkin kampaniya aparılır. Bu kampaniya dayanmır, önəmli beynəlxalq tədbirlər ərəfəsində daha da alovlanır, güclənir, əgər belə demək mümkündürsə, ondan sonra bir az səngiyir. Ancaq bu, daimi bir kampaniyadır, səbəbləri də aydındır. İlk növbədə, dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində olan riyakar, rüşvətxor siyasətçilər bu işlərə qoşulub. Xüsusilə, bu, Qərb siyasətçilərinə aiddir. Erməni pulları ilə özünə həyat quran konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər və s. ünsürlər Azərbaycana qarşı müharibə elan ediblər. Əfsuslar olsun ki, bu gün Avropada faşizm, irqçilik, islamofobiya, ksenofobiya, antisemitizm baş qaldırır. Yəni, bu hərəkət təkcə müsəlmanlara qarşı deyil. Əlbəttə ki, onlar müsəlman ölkəsinin bu qədər inkişaf etməsini istəməyən qüvvələrdir. Onlar, eyni zamanda, Azərbaycanda “beşinci kolon”un qalıqlarının himayədarları ilə birləşib bizə qarşı hücuma keçiblər.

Yəni, Avropa Oyunları ərəfəsində və Oyunlar zamanı bizə qarşı informasiya müharibəsi ən şiddətli mərhələyə qədəm qoymuşdu. Ancaq bu informasiya müharibəsində Azərbaycan xalqı və dövləti qalib gəlib. Çünki bu kampaniya və bu kampaniyanın son mərhələsi bir daha göstərib ki, heç bir kənar

qüvvə bizim iradəmizə təsir edə bilməz. Ancaq görün və Azərbaycan xalqı bir daha görsün ki, nə qədər bunlar şərəfsiz hərəkətlər edirlər. Avropa Oyunlarının açılışına iki gün qalmış Avropa Parlamenti anti-Azərbaycan qətnaməsini müzakirəyə çıxarıb və çalışıb ki, bu qətnamə qəbul edilsin. Baxmayaraq ki, Avropa Parlamentinin sədri Şults, onun müavini Lunaçek və onların əlaltıları qatı anti-Azərbaycan mövqeyindədirlər və Azərbaycanı düşmən seçiblər, ancaq bu qətnamə keçmədi, 136 deputat lehinə, 136 deputat əleyhinə səs verdi. Əslində bu, Şultsun, Lunaçekin və onlar kimilərinin siyasi iflası idi. Əgər bunlarda bir balaca vicdan varsa, ondan sonra istefa verməli idilər. Gördülər ki, bu, keçmir, bəs nə etməli? Almaniya Bundestaqı Oyunların açılışı günündə – iyunun 12-də yığışır, qətnamə qəbul edir. Bu qətnamənin mövzusu anti-Azərbaycan və yalan üzərində qurulubdur. Sual olunur, Almaniya Bundestaqının bizimlə nə işi var və Almaniya Bundestaqı özünü nə zənn edir? Dünyanın ağasıdırmı? Dünyaya hakimdirmi? Hamı onlara tabe olmalıdırmı? Görünür ki, onlar pis öyrəşiblər. Amma bizi başqaları ilə müqayisə etməsinlər. Bizim onlarla münasibətlərimiz distansiya səviyyəsindədir. Bizim onlardan heç bir istəyimiz yoxdur, əksinə, bizim təbii qazımız, kontraktlarımız, neftimiz, bu ərazidə, bu coğrafiyada fəaliyyətimiz onlara lazımdır. Biz isə onlardan texnologiya alırıq. Onlardan almasaq, başqa yerdən alarıq. Onlardan heç bir asılılığımız yoxdur. Ona görə, Almaniya Bundestaqı kimdir ki, anti-Azərbaycan qətnamə qəbul etsin?! Getsin öz işi ilə məşğul olsun. Bəsdirin başqa ölkələrin daxili işlərinə müdaxilə etdiniz, biz buna imkan verməik. Ancaq mən nəyi demək istəyirəm, bax, budur yanaşma. Nəyə görə? Çünki boğulur, partlayır, barışa bilmir ki, Azərbaycan uğurla inkişaf edir, dünyada müsəlman ölkəsi - Azərbaycan bu gün Avropa Oyunlarını hansı səviyyədə keçirir. Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində keçirilib. Onlardan fərqli olaraq buraya gələn qonaqlar, Avropanın dəyərli nümayəndələri, adi insanlar, idmançılar Azərbaycana heyran qaldılar, valeh oldular, sevdilər, getmək istəmirdilər. Mənə deyirlər ki, bəzi idmançılar yarışları başa çatandan sonra getmək istəmirdilər, axıra qədər qalmaq istəyirdilər. Bax, budur Azərbaycan və budur normal Avropa vətəndaşları. Biz qabağa getmək istədik, gördük ki, bizi qəbul etmirlər, müsəlman olduğumuza görə, onlara baş əymədiyimiz üçün, başqa səbəblərə görə. Ona görə biz dayanmışıq. İstəyərlər onlar bizə tərəf gələrlər. Bundestaqdan sonra, Oyunlar zamanı Avropa Şurası Parlament Assambleyası anti-Azərbaycan qətnaməsi qəbul edir. Yəni, bu nə deməkdir, bu nə düşmənçilikdir və siz kiminlə düşmənçilik edirsiniz, Azərbaycanla?! Biz düşmənçilik edə bilərik, kim bundan zərər çəkər onu onlar yaxşı düşünsünlər.

Bir sözlə, bax, budur bugünkü vəziyyət. Bununla bərabər Avropa ölkələri ilə ikitərəfli formatda bizim problemlərimiz yoxdur. Bir çox hallarda Avropanın aparıcı ölkələrinin liderləri ilə görüşlər əsnasında mən əlbəttə ki, bütün bu iradları deyirəm. Deyirlər ki, fikir verməyin, onlar o fikrə layiq deyillər. Biz fikir vermirik. Əgər fikir versəydik onların dediklərini edərdik. Burada heç kim onların dediklərinin birini də etməyəcək. O qətnamələr bizim üçün kağız parçasıdır. Ona görə, heç kim onları heç vaxt icra etməyəcək. Bunu bilsinlər, Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər. Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə, bax, bu istiqamətdə gedəcəyik.

***

Sonra Maliyyə naziri Samir Şərifov, Rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov çıxış etdilər.



Dövlətimizin başçısı iclasda yekun nitqi söylədi.

**Prezident İlham Əliyevin yekun nitqi**

– Biz iqtisadi artımın yüksək templərini ilin sonuna qədər saxlamalıyıq. Əminəm ki, biz buna nail olacağıq. Çünki birinci altı ayda göstəricilər çox müsbətdir. Gələn altı ay ərzində elə işləməliyik ki, ili gözəl nəticələrlə başa vuraq. Əminəm ki, makroiqtisadi sabitlik də təmin olunacaq. Çünki bayaq dediyim kimi, inflyasiya cəmi 3,5 faiz təşkil edir və ümumiyyətlə hesab edirik ki, birrəqəmli inflyasiya hər bir ölkə üçün gözəl göstəricidir. Son illər ərzində bizdə inflyasiya çox aşağı səviyyədədir. Bu səviyyə əlbəttə ki, normal iqtisadi inkişafı təmin edir və insanların rifah halını yaxşılaşdırır.

Dövlət investisiya proqramı icra edilir. Bu proqram çox konkret xarakter daşıyır. İnvestisiya proqramı ölkə qarşısında duran əsas məsələlərin həlli üçün mühüm vasitədir. İlin sonuna qədər bütün lazımi infrastruktur layihələrinin icrası davam etdirilməlidir və yeni layihələr icra edilməlidir.

Bu yaxınlarda müxtəlif bölgələrdə kənd yollarının tikintisi ilə əlaqədar müvafiq sərəncamlar imzalanmışdır və yeni sərəncamlar da imzalanacaq. Kənd yollarının tikintisi üçün həm dövlət büdcəsindən, eyni zamanda, Prezidentin Ehtiyat Fondundan əlavə vəsait ayrılmalıdır ki, ilin sonuna qədər bu proses sürətlə davam etsin. Deyə bilərəm ki, son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilmişdir və bu diqqət hesabına bir çox kəndlərdə yeni yollar salınmışdır. Amma hələ elə kəndlər var ki, orada yollar bərbad vəziyyətdədir. Bizdə bütün informasiyalar var. Mən bölgələrdə olarkən yerli icra orqanlarının nümayəndələri ilə bu məsələləri müzakirə edirəm, göstərişlər verirəm. Onlar təkliflər

verir və sonra bu təkliflər nəzərə alınır, məsələlər həllini tapır.

Qazlaşdırma davam etməlidir. Hər ay mənə məlumat verilir, hansı rayonda hansı kənd qazlaşdırılıb. Demək olar ki, hər ay bir neçə kənd qazlaşdırılır. Hesab edirəm ki, bu işlər daha da sürətlə aparılmalıdır. Qazlaşdırma Azərbaycanda çox yüksək səviyyədədir. Amma çalışmalıyıq ki, bu sahəni mümkün qədər daha da genişləndirək. Çünki buna böyük tələbat var.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti bu il yaranıb. Cəmiyyətin qarşısında vəzifə qoyulubdur ki, bölgələrdə elektrik enerjisi ilə təchizat Bakıdakı kimi olsun. Çox sadə bir göstərişdir. Ancaq bunu icra etmək o qədər də sadə məsələ deyil. Həm vəsait lazımdır, həm texniki məsələlər həllini tapmalıdır. Bölgələrdə köhnəlmiş infrastruktur əfsuslar olsun ki, kifayət qədər çoxdur. Yeni infrastruktur, ötürücü xətlər, transformatorlar, yəni, bölgələrdə bütün elektrik təsərrüfatı Bakının səviyyəsinə qalxmalıdır.

Bakıda da işlər davam edir. Baxmayaraq, bir neçə ildir ki, biz Bakıda təminatı artıq maksimum dərəcədə həll etmişik. Ancaq əlbəttə ki, şəhər böyüyür, əhali artır, yeni sənaye obyektləri, ictimai obyektlər, idman qurğuları yaradılır, "Ağ şəhər" kimi şəhər içində şəhər tikilir. Bütün bunlar əlavə enerji resursu almalıdır. Ona görə, yeni yarımstansiyalar inşa edilir, yeni elektrik stansiyalarının tikintisi məsələsi müzakirə olunur. Hazırda bizdə generasiya gücü kifayət qədərdir, ancaq biz gələcəyə baxmalıyıq. Generasiya gücü həmişə tələbatdan 10-15, bəlkə də 20 faiz artıq olmalıdır. Həm ehtiyat kimi saxlamalıyıq, həm də bizim ixrac potensialımız da var. Biz elektrik enerjisinin ixracı ilə məşğuluq. Bunu gələcəkdə daha da böyük həcmdə edə bilərik. Ancaq əlbəttə ki, ilk növbədə, ölkə daxilində, xüsusilə bölgələrdə, uzaq kəndlərdə bütün enerji infrastrukturu ən yüksək səviyyədə olmalıdır.

İçməli su-kanalizasiya layihələri bir çox rayonlarda artıq başa çatıb. Ancaq hələ ki, görüləsi işlər çoxdur. Bu məqsədlə bu il İnvestisiya Proqramında kifayət qədər böyük vəsait nəzərdə tutulub. Ancaq hesab edirəm ki, ilin sonuna qədər əlavə vəsait ayrılmalıdır. Müvafiq göstərişlər verilib, həm Bakıda, həm də digər şəhər və rayonlarımızda bu işlər aparılmalıdır.

Son illər ərzində görülən tədbirlər nəticəsində Bakıda içməli su ilə dayanıqlı, yəni, fasiləsiz təminat əhalinin 78 faizini əhatə edir. Əlbəttə, əvvəlki dövrlə müqayisə etsək, bu, yaxşı göstəricidir. Ancaq bu göstərici bizi heç cür qane edə bilməz. Bakı kimi gözəl, müasir şəhərdə 100 faiz təminat olmalıdır, 24 saat içməli su olmalıdır. Bu, çox ağır məsələdir, çünki burada həm böyük investisiyalar olmalıdır, həm də texniki məsələlər kifayət qədər mürəkkəbdir. Əlbəttə, investisiyalar ayrılır, texniki məsələlər də öz həllini tapır və çalışmalıyıq ki, biz Bakını içməli su ilə tam şəkildə təmin edək. Bütün bölgələr üzrə hər bir rayon üçün xüsusi layihə var. Dediyim kimi, bir çox rayonlarda başa çatıb, bəzi yerlərdə davam edir, yaxud da ki, hazırlıq işləri aparılır.

İçməli su ilə təminat əlbəttə ki, ilk növbədə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin üzərinə düşür. Ancaq bununla bərabər qeyd etməliyəm ki, digər qurumlar da bu işlərlə məşğuldurlar. Ekologiya və Təbii Sərvətlər Nazirliyi sutəmizləyici qurğuları quraşdırır. Məndə olan məlumata görə, bu il 90 min əhali təmin olunub, 48 məntəqədə qurğular quraşdırılıb, proqramın əvvəlindən isə 530 min insan çaylar boyu yerləşən kəndlərdə artıq bu qurğulardan istifadə edir. Bu proses davam etdirilməlidir. "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə subartezian quyularının qazılması davam edir. Hər il Prezidentin Ehtiyat Fondundan xüsusi vəsait ayrılır, bu barədə sərəncam mətbuatda dərc edilir və o sərəncamda həm kənd

əhalisinin bunu bilməsi, eyni zamanda, nəzarət üçün bütün kəndlərin adları göstərilir. Bu il kəndlərdə 300 quyu qazılmalıdır. Onlardan 170-i artıq qazılıbdır və bu proqram artıq 630 min insanı əhatə edir. Beləliklə, "Azərsu" ilə bərabər, ekologiya və meliorasiya qurumları 1 milyon 160 min insanı təmiz içməli su ilə təmin ediblər. Bu, çox ciddi sosial məsələdir. İlk növbədə, sosial məsələdir, yəni buna ayrılan vəsait heç vaxt dövlət büdcəsinə qayıtmayacaq. Çünki bizdə suyun qiyməti çox aşağıdır. Ancaq biz bunu insanların sağlamlığı, normal yaşaması üçün edirik və etməliyik.

Suvarma ilə bağlı layihələr. Artıq onların böyük hissəsi başa çatıb. Şəmkirçay, Taxtakörpü su anbarları tikilib istifadəyə verilib. Bu, böyük tarixi nailiyyətimizdir. Hazırda yeni kanalların tikintisi gedir və bu məqsədlər üçün də ilin sonuna qədər büdcədən əlavə vəsait ayrılmalıdır. Xüsusilə, Şəmkirçay dəryaçasından əkin sahələrinə gedən kanallar sürətlə tikilməlidir ki, biz bu infrastrukturdan maksimum dərəcədə istifadə edək.

Xızı rayonunda artıq kanallar tikilir. Taxtakörpüdən qidalanan torpaq sahələri müəyyən edilib və minlərlə hektar torpaq sahəsi bu il artıq suvarılacaq və oradan biz yaxşı məhsul gözləyirik. Beləliklə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün çox önəmli addımlar atılmış olur.

Bu il Tovuzçay su anbarının tikintisi başa çatıb. Bu da çox önəmli layihədir. İyirmi min hektar torpaqda suvarma yaxşılaşdırılacaq və 300 hektarda yeni torpaq sahələri suvarılacaqdır.

Əlbəttə ki, bunlar bilavasitə kənd təsərrüfatı ilə bağlı olan işlərdir. Giriş sözümdə qeyd etdiyim kimi, kənd təsərrüfatının inkişafı bizim üçün prioritetdir. Kənd təsərrüfatında 7,3 faiz artım olub və hesab edirəm ki, biz bu yüksək tempi saxlamalıyıq.

Bütün lazımi tədbirlər görülüb – struktur islahatları aparılıb, müvafiq sərəncamlar imzalanıb. Biz öz potensialımızdan maksimum dərəcədə istifadə etməliyik və əhalimizi 100 faiz səviyyəsində ərzaq məhsulları ilə özümüz təmin etməliyik. Biz buna yaxınlaşırıq. Hər il "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasını müzakirə edərək bu barədə xüsusi danışırıq. Bununla bərabər, biz ixrac bazarlarına çıxışı da əldə edirik. Çünki dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, əgər bizdə ixrac bazarlarına böyük çıxışlar olmasa, gələcəkdə bu, kənd təsərrüfatının inkişafını məhdudlaşdıra bilər. Çünki biz öz daxili tələbatımızı ödəyəndən sonra əgər ixrac bazarlarına çıxmasaq artıq məhsul istehsal edə bilməyəcəyik. İxrac bazarlarına çıxmaq üçün ilk növbədə məhsul rəqabətqabiliyyətli olmalıdır. Digər tərəfdən, o bazarlarda bizim logistik imkanlarımız olmalıdır. Eyni zamanda, onu da qeyd etməliyəm, dost ölkələrlə əlaqələr yüksək səviyyədə olmalıdır. Çünki indi ölkələr öz daxili bazarlarını qoruyur və demək olar ki, inkişafda olan ölkələr daxili istehsalla ciddi məşğuldurlar. Bu da təbiidir. Necə ki, biz məşğuluq, başqaları da məşğuldur. Ona görə, gələcəkdə bazarlara çıxış problemi əsas problem ola bilər. Biz buna hazır olmalıyıq.

Sənayeləşmə prosesi də uğurla gedir. Qeyd etdiyim kimi, qeyri-neft sənayemiz 14 faiz artmışdır. Mən xatırlamıram ki, nə vaxtsa qeyri-neft sənayemiz bu qədər artsın. Bu, doğrudan da rekord göstəricidir. Sənaye artımı əvvəllər də olub, amma daha çox neft hasilatı hesabına. O illərdə sürətli hasilatda artım olmuşdur. Amma qeyri-neft sənayemiz 14 faiz artıb. Bu, doğrudan da görülən işlərlə bağlıdır. Hər bir rayonda sənaye zonaları yaradılacaq, eyni zamanda, sənaye parkları. Məndə olan məlumata görə, Sumqayıt Kimya Sənaye Parkında 4 rezident tərəfindən 700 milyon manat investisiya nəzərdə tutulur. Bu

da çox gözəl göstəricidir və bir daha onu göstərir ki, bu sənaye parklarının yaradılması çox düzgün və vaxtında atılmış addım idi.

Biz, eyni zamanda, özümüzü tikinti materialları ilə tam təmin etməliyik. Bu sahədə də böyük irəliləyiş var və tikinti materiallarını artıq ixrac etməyə başlamışıq. Bu istiqamətdə iş davam etdirilməli, ərzaq məhsulları ilə yanaşı, tikinti materiallarının ixracı üçün yeni bazarlar aşkar edilməlidir.

İş yerlərinin yaradılması qeyd etdiyim kimi, daimi proses olmalıdır. Çünki bəzi başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir, əhali artır. Bu da, əlbəttə ki, insanların yaşayış səviyyəsinin artması ilə bağlıdır. Belə olan halda iş yerləri daim diqqət mərkəzində olmalıdır. Bizdə hər il əhali orta hesabla təxminən 100 min nəfər artır. Yəni, bu, gələcəkdə 100 min iş yerinin açılması deməkdir. Biz bunu nəzərə almalıyıq. Burada əlbəttə ki, düşünülmüş strategiya olmalıdır, bilirəm, müvafiq qurumlar, İqtisadiyyat və Sənaye Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər qurumlar bu strategiyanı işləyiblər. Bu, daim diqqət mərkəzində olacaq.

Qeyd etməliyəm ki, qeyri-neft sektorunun inkişafı çox sevindiricidir, bu il 9,2 faiz artıb. Əlbəttə ki, daha çox sahibkarlığın inkişafı, sahibkarların fəaliyyəti hesabına. Çünki dövlət sektorunda artımı daha çox enerji sektoru təmin edir. Ona görə sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Bildiyiniz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkrar əkin üçün indi yeni şərait yaradılır. Digər məsələlər öz həllini tapır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq. Mən bunu dəstəkləyirəm ki, fermerlər, iş adamları daha da rahat işləsinlər, daha da böyük gəlir əldə etsinlər. Yəni, dövlət çalışır ki, bu məsələ daim diqqət mərkəzində qalsın. Məhz bunun nəticəsində bu gün Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb.

Ancaq, eyni zamanda, əlbəttə ki, sahibkarlar da məsuliyyətli olmalıdırlar. Onlardan bizim heç bir başqa tələbimiz yoxdur, ancaq vergiləri vaxtında ödəsinlər. Əlbəttə ki, əgər hansısa bir sahibkar hansısa bir sosial məsuliyyəti öz üzərinə götürmək istəsə, mən onu ancaq alqışlaya bilərəm. Ancaq hesab edirəm ki, sahibkarların sosial məsuliyyəti bu gün bir anlayış kimi cəmiyyətdə artıq formalaşmaqdadır. Bunun müxtəlif formaları ola bilər. Mən burada heç bir tövsiyə də vermək istəmirəm. Ancaq tələblərə gəldikdə, sahibkarlar vergiləri tam şəkildə ödəməlidirlər. Əvvəlki dövrlərdə neftin qiyməti yüksək idi. Ölkəyə çox böyük valyuta axını gəlirdi. Hesab edirdim, biz maksimum şərait yaratmalıyıq ki, sahibkarlıq inkişaf etsin və sahibkarlar daha da çox vəsait əldə etsinlər, onu yenidən ölkə iqtisadiyyatına qoysunlar. Ancaq indi bizim gəlirlərimiz azalıb. Bu, təbiidir. Bunu hamı bilməlidir. Baxmayaraq, dediyim kimi, iqtisadiyyat, qeyri-neft sektorumuz artır, sosial proqramlar tam şəkildə icra edilir, amma bizim dövlət investisiyamız azalıbdır. Kapital qoyuluşu azalıbdır.

Mən giriş sözümdə qeyd etdim ki, son bir neçə il ərzində bəlkə ilk dəfədir, xarici sərmayə daxili sərmayəni üstələyib. Nəyə görə? Ona görə ki, daxili investisiyalar azalıb. Daxili investisiyaların böyük hissəsi dövlət büdcəsi, yaxud da ki, Dövlət Neft Fondu hesabına formalaşıb. Bu, reallıqdır, bunu hamı bilməlidir. Belə olan halda, əlbəttə, hər bir hökumət qurumu baxmalıdır ki, bizim rezervlərimiz haradadır. Biz bu rezervləri aşkar etmişik. Görmüşük ki, bir çox hallarda vergilər ödənilmir, burada yayınmalar baş verir. Bunu hamı – sahibkarlar da, cəmiyyət də bilir. Yəni, əfsuslar olsun, vergivermə mədəniyyəti bizdə tam şəkildə, şəffaf qaydada

formalaşmayıb. Vergiləri dövlət qurumları verir. Əlbəttə, o vergini almaq böyük məharət tələb etmir. Dövlət Neft Şirkətində hər şey şəffafdır. Bu, dövlət qurumudur. Digər dövlət qurumları da vergiləri tam şəkildə ödəyirlər. Amma özəl sektor vergini tam şəkildə verirmi? Yox, vermir.

Mənə məlumatlar gəlir ki, son vaxtlar Vergilər Nazirliyi özünü çox sərt aparır, tələbkardır. Burada biz iki məsələni bir-birindən ayırmalıyıq. Vergilər Nazirliyi çalışmalıdır ki, vergi ödəyiciləri vergiləri birmənalı olaraq qanuni şəkildə, tam şəkildə versinlər. Burada heç bir başqa söhbət və güzəşt ola bilməz. Ancaq heç bir başqa əsassız tələb irəli sürülməməlidir. Mən bunu qeyd etməliyəm. Ona görə, sahibkarlar sadə dillə desək dövlətin pulunu 100 faiz verməlidirlər, vəssalam. Ondan başqa, heç kimə 1 manat verməməlidirlər. Bax, mən onlara tapşırıram və göstəriş verirəm. Eyni zamanda, dövlət qurumlarına çox ciddi göstəriş verirəm ki, heç bir əsassız tələb irəli sürülməməlidir. Əfsuslar olsun ki, belə hallar var. Vergilər Nazirliyi, hüquq mühafizə orqanları, yerli icra hakimiyyətləri Bakıda və rayonlarda haqq qoyurlar, pay istəyirlər, "krışalıq" edirlər. Bu, dözülməz haldır, buna son qoyulmalıdır. Əgər hesab edirlər ki, bunu heç kim bilmir, səhv edirlər. Bu, çox ciddi məsələdir və mənə siqnallar gəlir ki, bu, bəzi yerlərdə kütləvi xarakter alıb. Bu, tamamilə yığışdırılmalıdır. Ona görə, bax, bu gün mən bütün aidiyyəti qurumlara və eyni zamanda, sahibkarlara göstəriş verirəm. Mənə məlumat versinlər, qorxmasınlar, siqnal versinlər, məktub yazsınlar, e-mailə yazsınlar. Əgər belə hallar varsa, o xoşagəlməz işlərlə məşğul olan dərhal öz cəzasını alacaq.

Ölkəmiz sahibkarlıq hesabına inkişaf edəcək. Di gəl ki, kimsə varlanmaq üçün gəlsin sahibkarları boğsun ki, sahibkar qapısına qıfıl vurub çıxıb getsin. Bu, dözülməz haldır. Yəni, bunu edən dövlətə xəyanət edir. Bunu edən, sadəcə olaraq, pul qazanmır, dövlətə xəyanət edir. Mən bunu belə qəbul edirəm və hamı bunu bilsin və nəticə çıxarsın.

Biz ilin sonuna qədər sosial infrastrukturun yaradılması ilə məşğul olacağıq. Göstəriş vermişəm ki, məktəblərin, uşaq bağçalarının və tibb ocaqlarının tikintisinə əlavə vəsait ayrılsın.

Köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu sahədə lazımi tədbirlər görülür, həm Dövlət Neft Fondunun xətti ilə vəsait ayrılır, yeni binalar tikilir, eyni zamanda, dövlət büdcəsində güzəştlər nəzərdə tutulub. Bu məsələ daim diqqət mərkəzindədir. Çalışmalıyıq ki, köçkünləri gələcəkdə də maksimum dərəcədə tezliklə yaxşı mənzillərə, evlərə köçürək. Bilirsiniz ki, hər il orta hesabla 20 min insan artıq yeni mənzillərə köçürülür.

Mən bir məsələni də bildirmək istəyirəm. Həm ictimaiyyət bilsin, həm də ki, burada artıq bu məsələ uzun müddətdir müzakirə olunur, göstərişlər verilib. Bu da dərman preparatlarının bazarı ilə bağlı olan məsələdir. Əfsuslar olsun ki, uzun illər burada da çox xaotik vəziyyət müşahidə olunurdu. Qeyd etməliyəm ki, bu məsələ bir qədər diqqətdən kənarda qalmışdır. Çünki biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Hər şey bazar tərəfindən tənzimlənir və təklif, qiymət, tələbat – yəni, bütün bunlar iqtisadi mexanizmlərdir. Hesab edirdik ki, indi bazar hər şeyi tənzimləyir, alıcılıq qabiliyyəti var, qiymətlər var. Amma sonra məsələni dərindən təhlil edərkən gördük ki, burada çox böyük ədalətsizliklər var. Qiymətlər süni şəkildə qaldırılır. Başqa ölkələrlə müqayisədə Azərbaycanda bəzi dərmanların qiymətləri bir neçə dəfə bahadır. İnsanlar məcbur olub bu dərmanları alırlar. Bir çox hallarda keyfiyyətsiz dərmanlar satılır. Bu məsələ dərindən öyrənilib.

İqtisadiyyat və Sənaye Nazirliyi, digər qurumlar, Səhiyyə Nazirliyi məruzə ediblər və bir neçə aydır ki, bu məsələ ilə ciddi məşğu-

luq. Hesab edirəm ki, burada həkimlərin də məsuliyyətsizliyi və bəzi hallarda tamahkarlığı özünü göstərir. Lazım olmayan reseptləri yazırlar. Resepti yazır, deyir ki, sən bu dərmanı filan yerdən almalısan. Hətta reseptlə satılmayan vitaminlərə də resept yazırlar. Bu, böyük bir biznes şəbəkəsidir. Bu biznes kimin hesabınadır? Adi insanın hesabına. Adi insan da məcbur olub gedir ona verilən reseptlə dərman alır. Heç bilmir nə alır. Sonra dərmanın ona kömək edib-etməməsi ilə əfsuslar olsun ki, heç kim maraqlanmır. Digər tərəfdən, dərmanlar var ki, müxtəlif ölkələrdə istehsal olunur. İnkişaf etmiş ölkələrdə onların qiyməti bahadır. O qədər də inkişaf etməmiş ölkələrdə o qiymət aşağıdır. Gedirlər ən ucuzunu, ən aşağı keyfiyyətlisini alırlar, gətirirlər, ən baha qiymətə satırlar. Bu, hələ məsələnin az bir hissəsidir. Mən burada bu barədə çox danışmaq istəmirəm. Ancaq bu sahədə çox ciddi pozuntular olub və var. Bu pozuntulara son qoyulmalıdır. Ona görə, indi bütün məsələ təhlil edilib. Artıq bir neçə aydan sonra tətbiq edilməyə başlayacaqdır. Hesab edirəm ki, sentyabr ayından gec olmayaraq bu məsələ artıq yeni müstəviyə qalxmalıdır. Həm şəffaflıq təmin ediləcək, hər bir vətəndaş biləcək ki, hansı dərmanı alır və hansı qiymətə alır. Qiymətlərin yuxarı səviyyəsi müəyyən ediləcək. Heç kim o səviyyədən baha sata bilməyəcək. Dərmanları satanlar da burada öz gəlirlərini götürəcəklər. Onların da normal gəlir səviyyəsi olmalıdır. Ancaq bu səviyyə 100, 200, 300 faiz olmamalıdır. Heç yerdə belə özbaşınalıq yoxdur. Görülən və görüləcək tədbirlər nəticəsində ilin sonuna qədər dərmanların qiymətləri kəskin şəkildə aşağı düşməlidir. İstəyirəm Azərbaycan ictimaiyyəti bunu bilsin. Bu məsələ də daim diqqət mərkəzində olacaq.

Hesab edirəm ki, biz sosial məsələləri müzakirə edərkən, əlbəttə, bu məsələlər sırf sosial xarakter daşıyır. Bu, mənəvi xarakter daşıyır. Dərman paltar, avtomobil deyil. Dərman insanların həyatıdır, onların sağlamlığıdır. Bu sahədə pozuntulara yol verən insanlar vicdansızdırlar. Başa düşürsünüz nə edirlər? İnsanlar nə etsinlər? Ona resept yazırlar, o da gedir alır. Nəyi alır, hansı keyfiyyətdədir? O, onu qəbul etməlidir, yoxsa yox? O haradan bilsin? Dərd burasındadır. Ona görə, bax, biz bu sosial və mənəvi pozuntuları aradan götürəcəyik.

Digər sosial məsələ ipoteka kreditləşməsi ilə bağlıdır. Mən artıq göstəriş vermişəm ki, bu ilin sonuna qədər ipotekaya dövlət büdcəsindən əlavə vəsait ayrılsın. Buna böyük ehtiyac var. Xüsusilə gənclər, digər kateqoriyalı insanlar. Onların həyat şəraiti yaxşılaşmalıdır. Hesab edirəm ki, ilin sonuna qədər ipotekaya dövlət büdcəsindən ən azı 200 milyon manat, bəlkə də çox vəsait verilməlidir. Maliyyə Nazirliyi, Mərkəzi Bank bu məsələ ilə məşğul olurlar. Onlara müvafiq göstərişlər verilib. Bir müddətdən sonra mənə məruzə etsinlər ki, bu məsələ necə icra olunur. Bunun mexanizmi nədən ibarət olacaq? Burada iki yanaşma var. İstəyirəm ki, ictimaiyyət onu da bilsin. Ya verilən vəsaitə mövcud binalardan mənzillər alınacaq, ya da ki, yeni binalar tikiləcək. Əlbəttə, tikinti sektorunu canlandırmaq üçün yeni binaların inşası daha da məqsədəuyğundur. Ancaq bu, bir qədər vaxt apara bilər. Ona görə, biz bəlkə də bu iki yanaşmanın sintezini tətbiq etsək pis olmaz. Hər halda, bu, əsas məsələ deyil. Əsas məsələ odur ki, vəsait ayrılmalıdır və həmin vəsaitin kimə veriləcəyini də siz müəyyən edin. Əlbəttə, şərtlər elə olmalıdır ki, ipotekaya maraq artsın.

Mən ekoloji vəziyyətlə bağlı dəfələrlə məsələ qaldırıram və şadam ki, Bakıda ekoloji vəziyyət yaxşılaşır. Son mühüm nailiyyət Böyükşor gölü ilə bağlıdır. Avropa Oyunlarının açılış və bağlanış mərasimlərində yuxarıdan çəkiliş aparılarkən biz Böyükşor gölünün mənzərəsini də görürdük. Görürdük ki, bu, indi şəffaf, gözəl bir göldür. Vaxtilə bu, ekoloji

fəlakət gölü idi. İkinci Dünya müharibəsi zamanı ondan açıq neft rezervuarı kimi istifadə edirdilər. Ondan sonra kanalizasiya, lay suları, bütün zir-zibil bu gölə tökülürdü və onun yanında dayanmaq mümkün deyildi. Artıq Böyükşor gölünün bir hissəsi təmizlənib, gözəl bulvar salınıb, göz oxşayır. Bu, göstərir ki, hər şeyi etmək mümkündür. Gərək, sadəcə, niyyət və istək olsun.

Böyükşor gölünün ikinci hissəsinin təmizlənməsi davam etməlidir. Bu il və gələn il bu məqsədlər üçün vəsait ayrılmalıdır. Beləliklə, şəhərdə gözəl göl yaranacaq. Bilirsiniz ki, biz təmizləmə işləri aparmaq üçün bu gölü bəndlə ikiyə böldük. Eyni zamanda, bu bənd gələcəkdə yola çevriləcək və əlavə bir yol arteriyası kimi fəaliyyət göstərəcək.

Zığ gölünün təmizlənməsi prosesi də bu il başlamalıdır. Bu məqsədlər üçün də büdcədən vəsait tapın və biz bunu da yubatmayaq.

Eyni zamanda, bu il Bakıda Ağ Şəhər bulvarı istifadəyə verilib. O da ekoloji fəlakət zonasında yaradılan bulvardır. Bayıl bulvarı neft buruqlarına qədər gəlib çatıb. Yəni, o tərəfə daha gedə bilmirik, çünki artıq orada neft hasil edilir, bu tərəfə də gedə bilmirik ki, orada neftayırma zavodu yerləşir. Ona görə, yəqin ki, bir neçə il gözləməli olacağıq. Heydər Əliyev adına neftayırma zavodunda böyük yenidənqurma işləri nəzərdə tutulur. Hesab edirəm ki, Ağ Şəhər bulvarına yaxın yerləşən neftayırma zavodu tədricən oradan köçürülməlidir. Bu, həm ekoloji cəhətdən lazımdır, həm də işin daha da səmərəli şəkildə qurulması bunu tələb edir. İndi o yerlərdə, o zonalarda olan insan oraya yaxınlaşdıqca dərhal havanın tərkibini hiss edir. Biz havanı təmizləməliyik, havanı çirkləndirən orada uzun illər fəaliyyət göstərən bir qurğudur.

Əminəm ki, Avropa Oyunlarından sonra turistlərin Bakıya, Azərbaycana axını daha da artacaq. Buraya gələn qonaqlar Bakının gözəlliyinə, rahatlığına, təhlükəsizliyinə valeh olublar. Qeyd etməliyəm ki, bu məsələlər qonaqların daim diqqət mərkəzində idi. Biz, əlbəttə, çalışmalıyıq ki, turistlərin sayını artıraq. Avropa Oyunları gözəl bir imkan, bir təqdimat idi. Qonaqlar bizim imkanlarımızı öz gözləri ilə gördülər.

Ancaq, eyni zamanda, bütün başqa məsələlər də öz həllini tapmalıdır ki, biz turistləri daha da böyük sayda buraya dəvət edək. İlk növbədə, vizalar məsələsi. Mən bu məsələ ilə bağlı dəfələrlə göstərişlər vermişəm. İndi müəyyən addımlar atılıb, amma bu məsələ hələ ki, tam şəkildə yoluna düşməyib. Əlbəttə, viza rejimi elə olmalıdır ki, Azərbaycana bəd niyyətlə gəlmək istəyənin qabağında böyük, möhkəm bir sədd olsun. Bu, birmənalıdır. Eyni zamanda, bu, turist, qonaq kimi gəlmək istəyənin qarşısında da maneəyə çevrilməməlidir. Ona görə, vizaların elektron verilməsi, xaricdə səfirliklərə müraciət edilməməsi, bütün bu məsələlər öz həllini tapmalıdır. Bakıya gəlmək istəyən hər bir insan elektron viza almalıdır, bunun üçün səfirliyə, heç bir yerə getməməlidir, evində kompyuterdə bileti, vizanı almalıdır, turizm şirkətlərinin xətti ilə gəlməlidir, vəssalam. Xarici İşlər Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə və digər qurumlara göstərişlər verilmişdir, amma nəticə hanı? Yoxdur və əgər kimsə mənə desə ki, var, yoxdur. Çünki mən soruşuram. Buraya gələn qonaqlar ağızdolusu danışırlar ki, nə gözəl ölkədir. Amma bir problem var ki, gəlmək çətindir, gərək bir ay, iki ay qabaq planlaşdıraq. İndi müasir dünyada insanlar sürətlə hərəkət edirlər. Gəlmək istəyən turist iki gün, üç gün ərzində otel sifariş edir, bilet, viza alır gəlir, vəssalam. Bax, bu məsələni gərək biz mütləq həll edək.

Aviabiletlərin qiyməti bəzi hallarda süni şəkildə qaldırılır. Sual olunur: nəyə görə? Nə üçün? Yüksək xidmət göstərilir. Mən bunu alqışlayıram. Doğrudan da bizim AZAL şir-

kətimiz yüksək xidmət göstərir. Bunu mənə AZAL-ın təyyarələri ilə gələnlər deyirlər. Mən bunu alqışlayıram. Ancaq Azərbaycan yanacağı xaricdən almır, özü istehsal edir. Başqa ölkələrə nisbətən ağ neft ucuz qiymətə verilir axı! Nə üçün qiymətlər bahadır? AZAL dövlət tərəfindən böyük subsidiyalar alır. Bütün təyyarələr dövlət büdcəsinin vəsaiti hesabına alınır, bütün aeroportlar dövlət hesabına tikilir, bütün şərait dövlət hesabına yaradılır. Nəyə görə biletlərin qiyməti başqa ölkələrə, şəhərlərə nisbətən baha olmalıdır? Nə üçün? Ona görə, mən tapşırıram hökumət, Maliyyə Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi bu məsələ ilə məşğul olsunlar. Həm müqayisə aparın, həm də burada tənzimləmə mexanizmi, hər şey şəffaf olmalıdır və qiymətlər süni şəkildə qaldırılmamalıdır.

Mənə bir siqnal da gəlir ki, bizdə otellərin qiyməti də bahadır, xüsusilə bölgələrdə. İndi Bakıda tanınmış brendlər fəaliyyət göstərir. Əlbəttə ki, onlar bütün dünyada fəaliyyət göstərir. İndi Bakıda otelləri şəbəkəsi ən mötəbər şəbəkədir. Onların öz qiymət siyasəti var. Biz buna o qədər də qarışa bilmərik. Ancaq beşulduzlu olmayan otellərin qiyməti niyə bahadır? Bölgələrdə, rayon yerlərində elə qiymət qoyurlar ki, heç adam oraya getmək istəmir. Yenə də deyirəm, burada bəlkə də buna çox sadə yanaşırlar ki, qiymətləri bazar tənzimləyir, əgər tələbat varsa, təklif də var, amma hər kəs gedə bilmir. Bizdə beşulduzlu otellərin sayı kifayət qədər çoxdur. Mən buna çox sevinirəm. Bu, ölkəmizin gücünü göstərir, bu, prestijdir. Yəni, ölkədə gedən proseslərin təzahürüdür. Əgər dünyanın aparıcı beşulduzlu brendləri Bakıdadırsa, demək Bakı buna layiqdir və onlar layiqdirlər ki, Bakıda olsunlar. Ancaq üçulduzlu otellər azdır, ikiulduzlu otellər yoxdur. O qədər də böyük maddi imkanlara malik olmayan ailələr istirahət edə bilmirlər. Budur reallıq. Azərbaycanda o qədər gözəl yerlər var ki, heç xaricə getmək lazım deyil. Dağlar, meşələr, dəniz, çaylar, göllər, xizək kurortu. Ona görə, bu üç məsələyə mütləq baxmaq lazımdır – vizalar, biletlərin, otellərin qiymətləri və üçulduzlu, ikiulduzlu otellərin tikintisi. Mədəniyyət və Turizm Nazirliyi də tövsiyələr versin və eyni zamanda, sahibkarlar da bunu eşitsinlər.

Əlbəttə ki, Avropa Oyunlarının keçirilməsi ölkəmiz üçün, Avropa üçün tarixi hadisə idi. Biz bu şərəfli missiyanı öz üzərimizə götürmüşük və bunu ən yüksək səviyyədə keçirmişik. Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində keçirilib. Bu, ölkəmizin gücüdür, potensialıdır. Ən sevindirici hal ondan ibarətdir ki, idmançılarımız bizi sevindirib və komanda hesabında ikinci yerə çıxıblar. Onlar 21-i qızıl olmaqla 56 medal qazanıblar və sübut ediblər ki, Azərbaycan idman dövlətidir, Azərbaycan güclü dövlətdir. Bütün qurumlar çox fəal işlədilər, təşkilat, təhlükəsizlik, nəqliyyat məsələləri, obyektlər, idman qurğuları, könüllülər, yəni, hər şey ən yüksək səviyyədə həll olunmuşdur. Bu, doğrudan da bizim böyük qələbəmizdir.

Mən Milli Olimpiya Komitəsinin prezidenti kimi, bir çox Olimpiya Oyunlarının açılışlarında olmuşam, müqayisə aparmaq üçün kifayət qədər imkanım var. Amma burada Avropa Oyunları ən yüksək səviyyədə keçirilib. Keçən Olimpiya Oyunlarında Londonda küçələrdə əlisilahlı insanlar gəzirdi, binaların damlarında hava hücumuna qarşı qurğular quraşdırılmışdı. Elə bil ki, sən müharibə şəraitində olan ölkəyə gəlmisən. Elə bil ki, fövqəladə vəziyyət yaradılmışdı. Amma heç kim Bakıda bir nəfər də əlisilahlı insan görmədi. Bax, budur bizim imkanlarımız. Təhlükəsizlik, mədəniyyət, səviyyə, insanlar – budur bizim dəyərimiz. Azərbaycan göstərdi ki, böyük potensiala malik olan güclü ölkədir. Bu Oyunlar Azərbaycan xalqının və Azərbaycan dövlətinin təntənəsidir. Biz ölkəmizlə, xalqımızla fəxr edirik və uğurla irəliyə gedirik. Sağ olun.

# Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir

**Prezident İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki**

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlıqlarının bərqərar edildiyi Azərbaycan Respublikasında Qurban bayramı hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur. Bu günlər ölkəmizin möminləri tərəfindən dini ayinlər yerinə yetirilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnsanlar Tanrıya yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq ifadəsinə və təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, uca Tanrıdan xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların qəbul olunmasını diləyirəm. Qoy bu müqəddəs bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 sentyabr 2015-ci il.

# Baş Prokurorluqda geniş əməliyyat müşavirəsi keçirilmişdir

**İyulun 31-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanları tərəfindən 2015-ci ilin birinci yarımilində "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bu məsələnin bölgə müşavirələrində müzakirələrinin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.**



Müşavirədə məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov bildirmişdir ki, 2015-ci ilin birinci yarısında ölkə həyatının bütün sahələrində dinamik inkişaf yüksək templərlə davam etmiş və vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi, bütövlükdə Azərbaycanın və hər bir regionun hərtərəfli sosial-iqtisadi inkişafına, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətləndirilmiş dövlətçilik siyasəti öz müsbət nəticələrini vermişdir. Əldə edilən nailiyyətlərin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu daxili və xarici siyasət tədbirləri təşkil etmişdir.

2015-ci ilin birinci yarısının Azərbaycanın tarixinə möhtəşəm hadisənin – ilk Avropa Oyunlarının keçirildiyi vaxt kimi daxil olmasını vurğulayan Baş prokuror ölkəmizin belə genişmiqyaslı tədbirə ev sahibliyi etməsini, eyni zamanda idmançılarımızın qazandığı parlaq qələbələri müstəqil Azərbaycan Respublikasının son illərdə əldə etdiyi nailiyyətlərin, sosial-iqtisadi sahədəki müvəffəqiyyətlərin əyani sübutu kimi qiymətləndirərək birinci Avropa Oyunlarının Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin artan qüdrətini, böyük məsuliyyət və təşkilatçılıq tələb edən belə mötəbər tədbirləri yüksək səviyyədə keçirməyə qadir olduğunu bir daha təsdiqlədiyini, həmçinin Avropa Oyunlarının beynəlxalq standartlara cavab verən böyük təşkilatçılıq səviyyəsində keçirilməsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın fədakar əməyini xüsusi qeyd eymişdir.

Diqqətə çatdırılmışdır ki, hesabat dövründə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuş, prokurorluq orqanlarında hərtərəfli islahatlar prosesi yeni müstəvidə davam etdirilmiş, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Vyetnam Sosialist Respublikasının Ədliyyə İslahatları üzrə Komissiyasının nümayəndə heyəti Baş Prokurorluqda olmuşdur

**İyulun 3-də Baş prokuror Zakir Qaralov Vyetnam dövləti başçısının sədri olduğu Kommunist Partiyası Siyasi Bürosunda Ədliyyə İslahatları üzrə Komissiyasının daimi sədr müavini, nazir xanım Le Thi Thu Banın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.**



Görüşdə Baş prokuror Vyetnam ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dinamik inkişaf etdiyini bildirməklə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında köklü islahatların aparılması, o cümlədən müasir informasiya texnologiyalarının tətbiqi, prokurorluğun kadr korpusunun gənc mütəxəssislər hesabına komplektləşdirilməsi və qarşıda duran vəzifələr barədə qonağa ətraflı məlumat vermişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini vurğulayan Baş prokuror Azərbaycan Prokurorluğunun strukturunda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılmasını və son illər ərzində bu sosial bəlaya qarşı mübarizə sahəsində həmin qurum tərəfindən görülən işləri diqqətə çatdırmış, ötən il ərzində bu istiqamətdə iki beynəlxalq səviyyəli tədbirlərin keçirildiyini xüsusi vurğulamışdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən xanım Le Thi Thu Ba ölkələrimiz arasındakı əlaqələrin uğurlu inkişafını təqdir etmiş, respublikamızın çox qısa zamanda yüksək nailiyyətlər əldə etməsini xüsusi qeyd edərək, məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış və iki ölkənin müvafiq qurumları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror İmişli rayonunda vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən vətəndaşlara keyfiyyətli xidmət göstərilməsi, dövlət qurumları tərəfindən onların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması məqsədilə Baş Prokurorluq tərəfindən müasir informasiya kommunikasiya texnologiyaları tətbiq olunmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinin baxılaraq həll olunması üçün müvafiq tədbirlər davam etdirilir.

İyulun 24-də Baş prokuror Zakir Qaralov İmişli rayon prokurorluğunun inzibati binasında İmişli, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Füzuli və Laçın rayonlarında yaşayan vətəndaşların qəbulunu keçirmişdir.

Qəbuldan əvvəl Baş prokuror və İmişli rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı bölgədə yaşayan 23 vətəndaşın müraciəti, o cümlədən ərizə, şikayət və təklifləri dinlənilmiş, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapmış, digər müraciətlər üzrə qaldırılan məsələlərin həll edilməsi üçün qəbulda iştirak edən prokurorluğun müvafiq struktur rəhbərlərinə tapşırıqlar verilmişdir.

Eyni zamanda, prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərə baxılmış, onların araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Qəbul zamanı vətəndaşlar əhaliyə göstərilən hərtərəfli qayğıya, bölgələrdə qəbulların silsilə xarakter almasına, regionlarda yüksək sosial-iqtisadi şəraitin yaradılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə, vətəndaş-məmur münasibətlərinin ölkə Prezidentinin tələblərinə uyğun olaraq sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, habelə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə bağlı konkret tapşırıqlar verilmişdir.

## Baş prokuror Tovuz rayonunda vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov avqustun 14-də Tovuz rayon prokurorluğunun inzibati binasında Tovuz, Ağstafa, Qazax, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Tovuz rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror tərəfindən bölgədə yaşayan 21 vətəndaşın müraciəti, o cümlədən ərizə, şikayət və təklifləri dinlənilmiş, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapmış, digər müraciətlər üzrə qaldırılan məsələlərin həll edilməsi üçün qəbulda iştirak edən prokurorluğun müvafiq struktur rəhbərlərinə tapşırıqlar verilmişdir.

Prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərə baxılmış, onların araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Qəbul zamanı vətəndaşlar əhaliyə göstərilən hərtərəfli qayğıya, bölgələrdə qəbulların silsilə xarakter almasına, regionlarda yüksək sosial-iqtisadi şəraitin yaradılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etmişlər.

# Baş prokuror Qəbələ rayonunda vətəndaşları qəbul etmişdir



Sentyabrın 4-də Baş prokuror Zakir Qaralov Qəbələ rayon prokurorluğunun inzibati binasında Qəbələ, Şəki, Qax, Balakən, Oğuz və Zaqatala rayonlarından olan vətəndaşların qəbulunu keçirmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Qəbələ rayon İcra Hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 30-a yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Gün ərzində qəbul edilən vətəndaşların müraciətlərinin böyük əksəriyyəti yerində öz həllini tapmışdır.

Vətəndaşların ərizə və şikayətlərində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları ilə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti üzrə müvafiq icra orqanlarında operativ həlli üçün təxirəsalınmaz zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Qəbulda iştirak edən vətəndaşlar, belə görüşlərin keçirilməsinə və bölgə sakinlərinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

**Baş Prokurorluğun**
**Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda kollegiya iclası keçirilmişdir

**İyulun 28-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2015-ci ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.**



Kollegiya iclasını aşıq elan edən Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev geniş məruzə ilə çıxış edərək qeyd etmişdir ki, hesabat dövründə muxtar respublika ərazisində 6 cinayət hadisəsi qeydə alınmış, peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi baş verməmiş, yetkinlik yaşına çatmayanlar, əvvəllər məhkum olunmuşlar, sərxoşlar və narkomanlar tərəfindən cinayət hadisələrinin törədilməsi halları qeydə alınmamışdır. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 2 fakt qeydə alınmışdır.

Qeyd olunmuşdur ki, prokurorluq orqanlarında 2 cinayət işi istintaq olunmuş, törədilmiş və ya hazırlanan cinayətlər haqqında 20 məlumat daxil olmuş, məlumatların həlli zamanı müddət və qanun pozuntularına yol verilməmiş, qəbul edilmiş qərarlardan ləğv ediləni olmamışdır.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin

əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 7 şəxs barəsində 7 iş üzrə ittiham hökmləri, 1 şəxs barəsində 1 iş üzrə isə bəraət hökmü çıxarılmış, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən 12 şəxs barəsində 10 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışına təyin edilmiş, Apellyasiya instansiyası məhkəməsində baxılıb nəticə verilmiş 13 şəxs barəsində 12 iş üzrə hökm dəyişdirilmədən saxlanılmış, 4 şəxs barəsində 2 iş üzrə hökmlər dəyişdirilmişdir. 2 şəxs barəsində 2 iş üzrə dövlət ittihamçıları tərəfindən apellyasiya protestləri verilmiş, lakin protestlər təmin olunmamışdır. Məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə 12 şəxs barəsində 12 işə baxılaraq nəticə verilmişdir.

Daxili işlər orqanlarında 7 cinayət işi istintaq olunmuş, müddət pozuntusu ilə cinayət işi istintaq olunmamış, istintaqı tamamlanmış işlərdən prokurorluq tərəfindən əlavə ibtidai istintaqa qaytarılanı olmamış, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma hallarına yol verilməmişdir. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 4 şəxs barəsində hesabat dövründə əməliyyat-qeydiyyat işi olmuşdur ki, onlardan 2-i tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmişdir. Xəbərsiz itkin düşmüş 1 nəfər axtarışda olmuş, həmin şəxsin tapılması təmin edilməmişdir. Muxtar respublika üzrə 3 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, nəticədə 6 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.

Vurğulanmışdır ki, müvafiq prokurorlar tərəfindən 20 əməliyyat-qeydiyyat işi öyrənilmiş və bu sahədə baş vermiş nöqsan və qanun pozuntularının aradan qaldırılması üçün 1 təqdimat və 1 göstəriş verilmişdir. Prokurorluq orqanlarında 2 beynəlxalq tapşırıq müvafiq qanunvericiliyə əsasən həll edilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və tabe rayon (şəhər) prokurorluqlarının iş planlarında nəzərdə tutulmuş bütün məsələlər vaxtında və keyfiyyətli icra olunmuş, inzibati qanunvericiliyin tələblərinin pozulması aşkar edildiyindən müvafiq orqanlara 9 təqdimat verilmişdir.

Vətəndaşlardan 8 ərizə, şikayət və digər müraciət daxil olmuşdur ki, onlardan 2-i prokurorluqda həll edilmiş, 6-ı isə təşkilatlara göndərilmiş, prokurorluğun elektron poçt ünvanına müraciət daxil olmamış, 155 nəfər isə müvafiq prokurorlar tərəfindən qəbul edilmişdir.

Prokurorluğun fəaliyyətində aşkarlıq və qanunvericiliyin izahı ilə bağlı 446 halda mühazirə, söhbət və digər formalarda təbliğat aparılmış, kütləvi informasiya vasitələrində 181 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmiş, Azərbaycan Respublikası Baş Prokurorluğunun 19.05.2015-ci il tarixli 13/214 saylı icmal məktubunda "Azərbaycan Respublikası Baş Prokurorunun "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli 09/62 saylı əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2014-cü ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub"da Muxtar Respublika Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuşdur.

Sonda əminliklə ifadə olunmuşdur ki, Muxtar Respublika Prokurorluğunun kollektivi bundan sonra cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat**
**və informasiya şöbəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2015-ci ilin I yarımili ərzində görülmüş işlərə dair hesabat vermişdir

**İyulun 22-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2015-ci ilin I yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.**



Tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov görülmüş işlər barədə ətraflı məlumat vermişlər.

Mətbuat konfransını giriş sözü ilə açan Kamran Əliyev bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin siyasi irsinə sadiqlik və yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin konseptual əsaslarla davam etdirilməsi nəticəsində ötən dövrlərdə olduğu kimi 2015-ci ilin I yarısında da bütün sahələrdə yenidənqurma işləri davam etdirilmiş, mühüm nailiyyətlər qazanılmaqla irimiqyaslı uğurlara imza atılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 may 2015-ci il tarixdə Azərbaycanın milli bayramı – "Respublika Günü" münasibətilə rəsmi qəbulda və digər çıxışlarında korrupsiya və rüşvətxorluğa qarşı

çox ciddi mübarizə aparıldığını, bu istiqamətdə görülmüş işlərin yüksək qiymətləndirildiyini qeyd etməsi, bu kimi neqativ təzahürlərə qarşı mübarizə istiqamətində prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoymuşdur.

Kamran Əliyev xüsusi vurğulamışdır ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyən etmiş, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi isə əvvəlki illərdə olduğu kimi fəaliyyətini cari ilin I yarımili ərzində də uğurla davam etdirmişdir.

Həmin müddət ərzində Baş İdarə tərəfindən vətəndaşların 5150 müraciətinə baxılmış, həmçinin 95 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 65-i (68%) üzrə cinayət işi başlanmış, 30 (32%) material üzrə cinayət işinin başlanılması rədd edilərək zəruri qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 3414 müraciət daxil olmuş, həmin müraciətlərin 12-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır. Həmçinin, əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

Hesabat dövrü ərzində törədilmiş və ya hazırlanan cinayətlər barədə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 10, habelə korrupsiya hüquqpozmaları ilə əlaqədar toplanmış materiallar üzrə 5 cinayət işi başlamışlar.

2015-ci ilin I yarımili ərzində Baş İdarənin İstintaq idarəsi tərəfindən 158 şəxs barəsində 99 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 50 şəxs barəsində 33 iş mənimsəmə və israf etmə, 41 şəxs barəsində 30 iş dələduzluq, 26 şəxs barəsində 13 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 8 şəxs barəsində 8 iş saxta sənədlərdən istifadə etmə, 6 şəxs barəsində 3 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 20 şəxs barəsində 8 iş rüşvət alma, 6 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 1 şəxs barəsində 1 iş isə özbaşınalıq faktı ilə əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 94 milyon 895 min manat ziyandan istintaq müddətində 30 milyon 226 min manat və ya 31,8 %-i ödənilmiş, qalan ziyanın təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbs qoyulmaqla ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

Vətəndaşların qəbulu, onların müraciətlərinə vaxtında baxılması və haqlı tələblərinin təmin edilməsi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əsas vəzifələrindən biri kimi müəyyənləşdirilmişdir. Hesabat dövründə Baş İdarədə 1313 vətəndaşın qəbul edilməsi təmin edilmişdir. Onlardan 255-i bilavasitə Baş İdarə rəisi, 128-i idarə və şöbə rəisləri, 930-u isə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən qəbul edilmişlər.

Ölkəmizin dinamik iqtisadi inkişafı nəticəsində ən müxtəlif formalarda təzahür edən korrupsiya hüquqpozmalarının ilkin araşdırılması və istintaqı ayrı-ayrı istiqamətlər üzrə aparıldığından Baş İdarənin Mütəxəssis təhlilləri şöbəsinin əməkdaşları bu məqsədlə müxtəlif sahələrlə bağlı digər şöbələrlə qarşılıqlı səmərəli fəaliyyət göstərmişlər.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmişdir.

Belə ki, "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunun tələblərinin pozularaq cinayət xarakteri daşımayan pozuntulara yol vermiş şəxslər barəsində "Prokurorluq haqqında" qanunun tələblərinə müvafiq olaraq aidiyyəti üzrə təqdimatlar verilmiş, 53 şəxs barəsində

müvafiq intizam tədbirlərinin görülməsi təmin edilmişdir.

Tədbirdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov çıxış edərək bildirdi ki, cari ilin birinci yarımili ərzində Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması üçün son vaxtlar həyata keçirilmiş bir sıra mühüm qanunvericilik və praktiki tədbirlər öz bəhrəsini vermiş, ölkədə korrupsiyaya qarşı mübarizənin daha səmərəli formada təşkil edilməsinə zəmin yaranmışdır. Hesabat dövrü ərzində Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar bir sıra mühüm tədbirlər həyata keçirilmiş, o cümlədən “Korrupsiya halları barədə məlumat verən şəxslərin müdafiəsi haqqında” qanun layihəsi hazırlanmışdır. Bundan başqa, korrupsiyaya qarşı həyata keçirilmiş mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində “ASAN” xidmət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Mətbuat konfransında bildirilmişdir ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövrü ərzində Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

Belə ki, hesabat dövrü ərzində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan dövlətlər qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat (GUAM), habelə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində və bir sıra digər beynəlxalq tədbirlərdə Baş İdarənin əməkdaşları fəal iştirak etmişlər.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar Baş İdarə əməkdaşlarının kütləvi informasiya vasitələrində məqalələri dərc edilmişdir.

Cari il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2015-ci ilin I yarımili ərzində gördüyü işləri müsbət dəyərləndirmişlər.

QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ixtisasartırma kursları təşkil edilmişdir

## "İnzibati xətalar haqqında işlər üzrə icraatın metodikası" ixtisasartırma kursu keçirilmişdir

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində iyulun 1–2-də Dövlət Miqrasiya Xidmətinin işçiləri üçün "İnzibati xətalar haqqında işlər üzrə icraatın metodikası" ixtisasartırma kursu təşkil edilmişdir.

Tədris məşğələləri qabaqcıl metodlardan və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə keçirilmişdir. Kurs zamanı dinləyicilərə "İnzibati xəta", "İnzibati məsuliyyət və tənbeh", "İnzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları", "İnzibati xətalar haqqında işlər üzrə sübutlar, sübutetmə", "İnzibati xətalar haqqında işlər üzrə icraata başlama", "İnzibati xətalar haqqında işlərə baxılması", "İnzibati xətalar haqqında işlər üzrə yekun qərarlar, onların yenidən baxılması", "İnzibati xətalar haqqında işlər üzrə prosessual və xidməti sənədləşmənin xüsusiyyətləri" mövzularında mühazirələr oxunmuş, bu mühazirələrə uyğun praktiki məşğələlər keçirilmişdir.

Kursun yekunu üzrə 04.07.2015-ci il tarixdə Elm-Tədris Mərkəzinin xüsusi kompyuter avadanlığı və proqram təminatı ilə təchiz edilmiş auditoriyasında elektron test üsulu ilə imtahan təşkil olunmuş və uğurla nəticələnmişdir.

## Stajorlar üçün hazırlıq kursu keçirilmişdir



Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikası Prokurorluğu orqanlarına 2014–2015-ci illərdə qulluğa qəbul olunmuş və stajorluq keçən işçilər üçün 2015-ci il avqustun 17-dən sentyabrın 5-dək və sentyabrın 7-dən 28-dək hazırlıq kursları təşkil edilmişdir.

Tədris-tematik plana cinayət, cinayət-prosessual, kriminalistika və digər sahələr üzrə aktual mövzular salınmışdır. Təlimlərə Elm-Tədris Mərkəzinin əməkdaşları ilə yanaşı Baş Prokurorluğun və ərazi prokurorluqlarının təcrübəli işçiləri, eləcə də Ədliyyə və Səhiyyə Nazirliklərinin ekspertləri cəlb edilmişlər.

Tədris prosesində informasiya texnologiyalarının (interaktiv lövhə, proyeksiya aparatı, noutbuk, LSD tipli Full HD ekran) və kompüter proqramlarının imkanlarından (Microsoft Power Point, Word, Office Access, Exsel) geniş istifadə edilmişdir. Bəzi məşğələlər səyyari qaydada ekspertiza müəssisələrində aparılmışdır.

Kurs başa çatdıqdan sonra, sentyabrın 5-i birinci qrup, 28-i isə ikinci qrup üçün imtahan keçirilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul davam edir

**Prokurorluq orqanlarına işə qəbulla əlaqədar müsabiqənin yazılı imtahan mərhələsi keçirilmişdir**



İyulun 28-də prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant ştat vahidləri üzrə elan edilmiş işə qəbulun növbəti yazılı imtahan mərhələsi keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən imtahanın tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında keçirilməsi üçün bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. İmtahanı 30-a yaxın hökumət, qeyri-hökumət və kütləvi informasiya vasitələrinin nümayəndələri müşahidə etmişlər.

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil və demokratik yolu olmaqla bərabər, həm də xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyularaq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə tam uyğun şəkildə aparılır. 2002-

ci ildən başlayaraq prokurorluğa işə qəbulun bu yolla həyata keçirilməsi kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə dövlət başçısının verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olmuşdur.

Müsabiqə yolu ilə işə qəbul edilmiş gənc mütəxəssislər hazırda prokurorluğun kadr korpusunun 54 faizini təşkil etməklə təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər. Xidmətdə fərqləndiklərinə və vəzifələrini nümunəvi icra etdiklərinə görə müsabiqə yolu ilə işə qəbul edilmiş 631 gənc hüquqşünasın bir çoxu prokurorluğun müxtəlif struktur qurumlarında məsul vəzifələrə irəli çəkilmişlər.

Müsabiqənin yazılı imtahan mərhələsində iştirak edən 38 namizəddən 7-si qadın olmaqla, 28-i Bakı Dövlət Universitetinin, 2-si Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 2-si Naxçıvan Dövlət Universitetinin, 3-ü Milli Aviasiya Akademiyasının, 3-ü isə digər ali təhsil müəssisələrinin məzunlarıdır.

## Prokurorluq orqanlarında işə qəbulla bağlı elan olunmuş müsabiqəyə yekun vurulmuşdur

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan olunmuş müsabiqəyə yekun vurulmuşdur.

Müsabiqənin üçüncü mərhələsi olan müsahibəyə buraxılmış namizədlərin hazırlıq səviyyəsi, dünyagörüşü, məntiqi düşünmə qabiliyyəti və prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərinin yoxlanılması nəticəsində 25 gənc hüquqşünas "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları" ilə müəyyənləşdirilmiş keçid balını toplamışdır.

Gənc hüquqşünasların prokurorluq orqanlarına müsabiqə yolu ilə işə qəbulu respublikamızda reallaşdırılan dövlət gənclər siyasətinin, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən daha səmərəli istifadə olunması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbər göstərişlərinin icrası istiqamətində uğurla həyata keçirilən mühüm tədbirlərdən biri olmuşdur. Sonuncu müsabiqənin nəticələri də nəzərə alınmaqla tam şəffaf və ədalətli prosedurlar əsasında keçirilmiş müsabiqələr nəticəsində qulluğa qəbul edilmiş gənc hüquqşünaslar hazırda respublika prokurorluq orqanlarının kadr korpusunun 57 faizini təşkil edir. Əvvəlki müsabiqələrin yekunlarına görə işə qəbul olunmuş gənclər prokurorluq orqanlarında səmərəli fəaliyyət göstərməklə, onların bir hissəsi yuxarı təsnifatlar üzrə, o cümlədən rəhbər vəzifələrə irəli çəkilmişlər.

Prokurorluq orqanlarında işə qəbulla bağlı müsabiqədən keçmiş namizədlər 27 avqust 2015-ci ildən Ədliyyə Akademiyasında icbari təlimə cəlb ediləcəklər. İcbari təlimi müvəffəqiyyətlə başa vurduqdan sonra peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə almış gənc mütəxəssislər prokurorluq orqanlarında müvafiq vakant vəzifələrə stajor qismində təyin ediləcəklər.

# Müsabiqə yolu ilə prokurorluq orqanlarında işə yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilmişdir



Sentyabrın 30-da Azərbaycan Respublikası Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında işə yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilmişdir.

Prokurorluq orqanlarında işə yeni qəbul edilmiş gənc əməkdaşlar ilk növbədə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, "Əbədi məşəl" memorialı önünə əklil qoymuşlar.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, prokurorluğun kadr tərkibinin formalaşdırılmasının yeganə düzgün yolu kimi beynəlxalq standartlara uyğun şəffaf prosedur qaydalar əsasında gənc mütəxəssislərin işə qəbul edilmələri, memarı ulu öndərimiz Heydər Əliyev olan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilən hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq, tam aşkarlıq şəraitində, şəffaf prosedurlarla, ciddi ictimai nəzarət altında qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin müşahidəsi ilə keçirilən müsabiqədə seçilən ən layiqli namizədlər müxtəlif vəzifələrə təyinatlar almışlar.



Qeyd edilmişdir ki, prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq üçün Baş Prokurorluğun Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə əlaqəli şəkildə keçirdiyi qəbul prosesində iştirak etmiş gənc hüquqşünasların içərisindən ən layiqli 25 namizədin andiçmə mərasimi Azərbaycan Respublikasının müstəqil inkişaf tarixinin yeni yüksəliş mərhələsinə təsadüf edir. Bu gün dünyada analoqu olmayan çox yüksək templərlə inkişaf edən Azərbaycan Respublikasında dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi altında böyük quruculuq işləri həyata keçirilməklə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, regionun aparıcı dövlətinə çevrilən ölkəmizin iqtisadi qüdrətinin möhkəmləndirilməsi, demokratik dəyərlərə əsaslanan dünyəvi və hüquqi dövlət quruculuğunun tam yeni məzmunlu bir mərhələyə qaldırılması istiqamətində möhtəşəm işlər görülür.

Xüsusi vurğulanmışdır ki, gənclərə hərtərəfli qayğı və diqqət göstərilməsi, onların problemlərinin həlli istiqamətində bütün dövlət təsisatları tərəfindən zəruri tədbirlərin görülməsi, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda aparılan dövlətçilik siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın təsdiq edilməsi bu məsələlərə çox böyük önəm verildiyinin bariz nümunəsi kimi dəyərləndirilməlidir.

Diqqətə çatdırılmışdır ki, 2000-ci il aprelin 26-da ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən müşavirədə əsası qoyulmaqla, prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli islahatlar prosesinin ən mühüm




AZƏRBAYCAN PREZİDENTİ KİMİ MƏN
AZƏRBAYCAN PROKURORLUĞUNA
İNANIRAM, GÜVƏNİRƏM VƏ ARXALANIRAM.
HEYDƏR ƏLİYEV

istiqamətlərindən biri kimi müsabiqə yolu ilə işə qəbulun alternativi olmamaqla, bu yol prokurorluğun kadr tərkibinin komplektləşdirilməsinin ən demokratik və mütərəqqi vasitəsidir. 2002-ci ildən başlayaraq keçirilən 15 müsabiqə nəticəsində işə qəbul edilmiş 631 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 56 faizdən çoxunu təşkil edir. Çox müsbət hal kimi qeyd edilmişdir ki, müsabiqə yolu ilə ilkin qəbulların nəticələrinə görə prokurorluqda işə qəbul olunmaqla fəaliyyətləri dövründə xidməti vəzifələrinə vicdanlı münasibətləri və peşə hazırlığı səviyyəsinə görə seçilən bir çox gənc mütəxəssis vəzifədə irəli çəkilmiş, o cümlədən Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi, müstəqil rayon prokuroru və digər mühüm qurumlara təyinatlar almışlar.



Azərbaycan Respublikası Baş prokurorunun müavini, müsabiqə komissiyasının sədri Namiq Əsgərov işə qəbulla əlaqədar müsabiqənin keçirilməsi ilə bağlı mərasim iştirakçılarına ətraflı məlumat vermişdir.

Daha sonra, prokurorluqda işə yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilmiş, işə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içmiş və onlara xidməti vəsiqələr təqdim olunmuşdur.

Mərasimdə çıxış edən gənclər prokurorluğa işə qəbulun obyektiv, ədalətli və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün yaradılmış şəraitə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmiş və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz vermişlər.

Baş prokuror Zakir Qaralov mərasimə yekun vuraraq prokurorluğa işə qəbul olunan gəncləri təbrik etmiş, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əmin olduğunu bildirmişdir.

Mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Gəncə şəhər prokurorluğunda müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasına dair seminar keçirilmişdir



Sentyabrın 21-də Baş Prokurorluğun müraciətlərə baxılması idarəsi tərəfindən Gəncə şəhər prokurorluğunda Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasına dair seminar keçirilmişdir.

Seminarda Daşkəsən,Göygöl, Samux, Xocalı, Goranboy, Kəlbəcər, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir rayon və Gəncə şəhər prokurorluğunun əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Elşad Eyvazov tərəfindən prokurorluq üzrə bu sahədə müvafiq əmrin tələblərindən irəli gələn vəzifələr və tələblərin icrasını təmin edən konkret tədbirlər barədə məlumat verilərək, əmrin müddəaları şərh edilmiş, tabe prokurorluqlarda mövcud olan çatışmazlıqların aradan qaldırılması ilə bağlı konkret tövsiyələr verilmiş, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində lazımi səmərə əldə edilməsi məqsədilə seminar iştirakçılarının irəli sürdükləri təkliflər müzakirə olunmaqla müsbət təcrübə təhlil edilmişdir.

Əmrin 25-ci bəndinin tələbi – prokurorluq orqanlarının rəhbərləri tərəfindən zəruri olan hallarda müraciət müəlliflərinin şəxsən qəbul edilməsi üçün təşəbbüs göstərilməsi vəzifəsi xüsusi vurğulanmışdır. Vətəndaşların yaşayış yerləri üzrə qəbulunun mühümlüyü qeyd edilərək, bununla bağlı Baş prokurorun müavininin tabe prokurorluqlara ünvanlanmış 21.09.2011-ci il tarixli 09/337 nömrəli məktubunda vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə yaşayış yerləri üzrə qəbullar barədə məlumatların dolğun və operativ formada ictimaiyyətin diqqətinə çatdırılması üçün yerli kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməsinin tövsiyə olunması bir daha vurğulanmış, vətəndaşların qəbulu qrafiklərinin vaxtında tərtib edilərək qəbulların mütəmadi olaraq keçirilməsi zəruriliyi, rayon (şəhər) prokurorlarının bu sahəyə şəxsən cavabdeh olmaları qeyd edilmişdir.

Sonra seminar iştirakçılarına müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi sahəsində ardıcıl həyata keçirilən tədbirlər, eləcə də prokurorluq üzrə müvafiqi əmrə əsasən tətbiqinə başlanılmış «Elektron sənəd dövriyyəsi» proqramının vacibliyi barədə məlumat verilmiş, onun mahiyyəti və işləmə mexanizminə dair zəruri informasiya təqdim edilmişdir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmaqla əmrin yerlərdə tətbiqi ilə əlaqədar konkret tövsiyələr verilmişdir.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Cəlilabad rayon prokurorluğunun yeni inşa olunmuş inzibati binasının açılışı olmuşdur





Sentyabrın 29-da Cəlilabad rayon prokurorluğunun yeni inşa olunmuş inzibati binasının açılışı olmuşdur.

Binanın açılışında iştirak edən Baş prokurorun müavini Namiq Əsgərova məlumat verildi ki, 2 mərtəbəli bina orijinal layihə əsasında inşa olunmuş, binanın foyesində ulu öndər Heydər Əliyevin və dövlətimizin prokurorluq orqanlarına qayğısını əks etdirən fotoguşə yaradılmış, bütün otaqlar kompüter və digər zəruri texniki avadanlıqlarla təchiz edilmişdir.

Baş prokurorun müavini Namiq Əsgərov 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı münasibəti ilə rayon prokurorluğunun kollektivini təbrik edərək bildirdi ki, Azərbaycan Prokurorluğunun demokratik məzmunda tamamilə yenidən formalaşması, mili maraqlarımıza xidmət edən bir təsisat kimi hərtərəfli təkmilləşməsi və müasirləşməsi məhz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi dövlətçilik siyasəti və onun gündəlik qayğısı nəticəsində mümkün olmuşdur. Ölkəmizdə reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə, cəmiyyətdə statusuna uyğun yerini tutmuşdur. Xüsusi vurğulandı ki, son illər Baş Prokurorluqda hərtərəfli və bütün sahələri əhatə edən uğurlu islahatlar aparılmış və "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" prokurorluq orqanlarının yeniləşməsi və işinin təkmilləşməsi yolunda mühüm əhəmiyyət kəsb etməklə prokurorluq orqanlarının infrastrukturunun yaxşılaşdırılmasına, müasir binaların inşasına təkan vermişdir.







Cəlilabad rayon prokuroru Tariyel Ələkbərov rayon prokurorluğunun inzibati binasının müasir standartlar səviyyəsində inşa edilərək bütün otaqların kompüter və ən müasir zəruri avadanlıqlarla təmin edilməklə istifadəyə verilməsini dövlət tərəfindən prokurorluq orqanlarına göstərilən diqqət və qayğı kimi qiymətləndirmişdir.

Tədbirdə prokurorluq əməkdaşları dövlətin onlara göstərdiyi yüksək etimadı doğruldacaqlarına, qarşıya qoyulan vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəklərinə inam ifadə etdilər.

**Cəlilabad rayon prokurorluğu**

# Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında seminarlar keçirilmişdir

## Culfa rayon prokurorluğunda "Cunayət təqibi zamanı prokurorluq orqanlarında təqsirsizlik prezumpsiyasının təmin olunması" mövzusunda seminar keçirilmişdir

İyulun 14-də Culfa rayon prokurorluğunda Culfa və Ordubad rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə "Cunayət təqibi zamanı prokurorluq orqanlarında təqsirsizlik prezumpsiyasının təmin olunması" mövzusunda seminar-məşğələ keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov və İstintaq şöbəsinin rəisi Elşad Ağayev çıxış etmişlər.

Natiqlər təqsirsizlik prezumpsiyasının mahiyyəti və müvafiq normaların tətbiqi metodologiyası barədə məlumat verərək, "Cinayət təqibi zamanı prokurorluq orqanlarında təqsirsizlik prezumpsiyasının təmin olunması haqqında" Azərbaycan Respublikası Baş prokurorunun 5 iyun 2015-ci il tarixli 10/57 №-li əmrinin tələblərini izah etmiş və onların təcrübədə nəzərə alınmasının vacibliyini əsaslandırmışlar.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

## Şərur rayon prokurorluğunda "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadə qaydaları" mövzusunda seminar keçirilmişdir

Avqustun 3-də Şərur rayon prokurorluğunda Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının müstəntiqlərinin iştirakı ilə "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadə qaydaları" mövzusunda seminar-məşğələ keçirilmişdir.

Məşğələdə çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğu İstintaq şöbəsinin rəisi Elşad Ağayev qeyd etmişdir ki, cinayət işinin istintaqı müstəntiqin işinin düzgün təşkil edilməsindən və hadisə yerinə baxışın mükəmməl təşkilindən çox asılıdır. Hadisə yerinə baxışda dəlillərin aşkar edilib götürülməsi, düzgün qablaşdırılması, tədqiqat üçün göndərilməsi sahəsində yetərli kriminalistik biliyin olmaması istintaqın nəticələrinə çox ciddi təsir göstərir. Hər bir cinayətin izlərinin böyük əksəriyyəti isə hadisə yerində qalır.

Bildirilmişdir ki, cinayəti törədinin şəxsiyyətini, eləcə də onun cinayətin digər hallarını müəyyən etmək üçün hadisə yerində olan izlərin aşkar edilməsi, qeydə alınması, təsbit olunub götürülməsi və qablaşdırılması müstəsna əhəmiyyətə malikdir. Hadisə yerində əldə olunan və sübuta çevrilən məlumatların şəxsin təqsirinin müəyyənləşdirilməsində və məhkəmədə sübuta yetirilməsində rolu əvəzsizdir.

Hadisə yerinə baxış zamanı müstəntiq ilkin olaraq onun vəziyyətinin təhlilinə, həmçinin, şahidlərin, ictimaiyyətin nümayəndələrindən daxil olan bilgilərə və istintaq orqanlarından alınan əməliyyat xarakterli məlumatlara əsaslanaraq, baş vermiş hadisə, cinayəti törətmiş şəxslər və cinayətin ayrı-ayrı epizodları üzrə fərziyələr irəli sürürməsi, hadisə yerinə baxış zamanı müstəntiqin kirimnalistika texnikasndan istifadə məsələlərini bilməsinin olduqca mühüm əhəmiyyəti vardır.

Sonda iştirakçılara Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış "Hadisə yerinə baxış zamanı kriminalistika texnikasından istifadəyə dair" metodiki vəsaitdən geniş istifadə olunması tövsiyə olunmuş, suallar cavablandırılmışdır.

## Naxçıvan şəhər prokurorluğunda "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu" mövzusunda seminar keçirilmişdir

Sentyabrın 1-də Naxçıvan şəhər prokurorluğunda Naxçıvan şəhər, Babək, Culfa, Ordubad və Şahbuz rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu" mövzusunda seminar-məşğələ keçirilmişdir. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov qeyd etmişdir ki, noyabr ayının 1-də Azərbaycan Respublikası Prezidentinin 28.08.2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31.08.2015-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbəti parlament seçkiləri keçiriləcəkdir.

Qeyd olunmuşdur ki, vətəndaşların dövlət orqanlarına seçmək və seçilmək hüququ onların Konstitusiya ilə müəyyən edilmiş statusunun ən vacib elementlərindən biri kimi təsbit olunmuşdur. Demokratik seçkilərin keçirilməsi hər bir ölkənin ardıcıl və stabil olaraq inkişafının təmin edilməsində onun idarəetmə orqanlarının formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir.

Seçkilərin keçirilməsinin təşkilində və təmin edilməsində əsas fəaliyyət seçki komissiyalarının üzərinə düşsə də, müvafiq dövlət orqanlarının, o cümlədən prokurorluq orqanlarının da üzərinə qanunla nəzərdə tutulmuş müəyyən vəzifələr düşür. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 11.05.2005-ci il tarixli Sərəncamında digər dövlət qurumları ilə yanaşı prokurorluq orqanlarının da bu sahədə fəaliyyətinin təkmilləşdirilməsi üçün onların üzərinə düşən vəzifələr müəyyən edilmiş, Sərəncamın 2-ci bəndində xüsusi olaraq qeyd edilmişdir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, digər dövlət məmurları seçki prosesinə qanuna zidd olaraq müdaxilə edərlərsə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər. Bununla yanaşı, Cinayət və İnzibati Xətalar Məcəlləsinin və digər qanunların tələblərinin vətəndaşlar tərəfindən pozulmasına görə onların məsuliyyətə cəlb edilməsi hallarının siyasi mənsubiyyətə görə təqib kimi qiymətləndirilməməsinin izah edilməsi zərurəti də qeyd edilmişdir.

Prokurorluq orqanlarının seçkilərin keçirilməsi prosesindəki əsas rolu seçki hüquqlarının müdafiəsi ilə bağlıdır. Belə ki, prokurorluq orqanları Mərkəzi Seçki Komissiyası və digər seçki komissiyaları ilə səmərəli surətdə əməkdaşlıq etməklə qanunla üzərinə düşən vəzifələri yerinə yetirməlidir. Seçkilərlə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələr əsasən daxil olmuş müraciətlərə baxılması ilə əlaqədardır.

Dinləyicilərin diqqətinə çatdırılmışdır ki, qanunvericilik ölkədə demokratik və şəffaf seçkilərin keçirilməsi üçün müvafiq norma və müddəalar nəzərdə tutur. Azərbaycan

Respublikasında seçkilərin təşkil edilməsi və keçirilməsi seçki komissiyaları tərəfindən həyata keçirilir. Seçki komissiyaları öz fəaliyyətlərində hər hansı dövlət hakimiyyət orqanlarından, bələdiyyə qurumlarından, siyasi partiyalardan, qeyri-hökümət təşkilatlarından və başqa ictimai təşkilatlardan, digər hüquqi və fiziki şəxslərdən asılı deyildirlər. Seçki komissiyalarının işinə müdaxilə edən və ya təsir göstərən şəxslər Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəllələrinə əsasən məsuliyyətə cəlb edilirlər. Eyni zamanda, seçki komissiyaları öz fəaliyyətlərində qanuna əsaslanmalı: qanunları tam, bərabər və qərəzsiz tətbiq etməli; referendum üzrə təşviqat qrupuna namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət bəsləməli; onlara münasibətdə neytral və qərərsiz olmalı, onların hər hansı birinin dəstəklənməsinə yönələn və ya dəstəklənməsi kimi başa düşülə bilən hərəkətlərə yol verməməlidirlər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

## Kəngərli rayon prokurorluğunda “Kriminalistik fotoqrafiyanın tətbiqinin ümumi qaydaları” mövzusunda seminar keçirilmişdir

Sentyabrın 8-də Kəngərli rayon prokurorluğunda Kəngərli, Şərur və Sədərək rayon prokurorluqlarının müstəntiqlərinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun İstintaq şöbəsinin rəisi Elşad Ağayev “Kriminalistik fotoqrafiyanın tətbiqinin ümumi qaydaları” mövzusunda seminar-məşğələ keçirmişdir.

Elşad Ağayev çıxışında bildirmişdir ki, Azərbaycan Respublikası CPM-nin istintaq hərəkətlərinin aparılmasını müəyyən edən maddələri cinayət hadisəsinin tam, hərtərəfli və obyektiv arasdırılması üçün müstəntiqə yardımçı olur. Natiq vurğulamışdır ki, kriminalislik fotoçəkiliş aparılan istintaq hərəkətinin taktikasına və onun nəticələrinin rəsmiləşdirilməsi ardıcıllığına uyğun olmalı, fotoşəkillər istintaq hərəkətində göstərilən ardıcıllığa uyğun aparılmaqla, həmin qaydada protokola əlavə edilməlidir. İstintaq hərəkətinin aparıldığı ərazinin ümumi görünüşü, orada olan obyekt və əşyaların fotoçəkilişi, onların aşkar olunduqları vəziyyət və şəraitə hər hansı bir dəyişiklik edilməzdən əvvəl aparılmalıdır.

Sonda iştirakçılara Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış “Kriminalistik fotoqrafiya” adlı metodiki vəsaitdən geniş istifadə olunması tövsiyə olunmuş, suallar cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) Assambleyasının iclası keçirilmişdir

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun sədrliyi ilə Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) Vyana şəhərində yerləşən mənzil-qərargahında bu qurumun Assambleyasının Bürosunun geniş tərkibli iclası keçirilmişdir.

Büroya üzv ölkələrin yüksək səviyyəli nümayəndələrinin, habelə BMT-nin nəzdində fəaliyyət göstərən regional qruplara sədrlik edən ölkələrin səfirlərinin iştirak etdiyi iclasda Assambleyanın 9-11 dekabr 2015-ci ildə Vyana şəhərində keçirilməsi nəzərdə tutulan 4-cü sessiyasına hazırlıqla əlaqədar zəruri təşkilati işlər, qeyd olunan sessiyada qəbul edilməsi nəzərdə tutulmuş qətnamə layihələri, Akademiyanın İdarə Heyətinə seçkilər və sair məsələlər üzrə ətraflı müzakirələr aparılmışdır.

Büronun iclasını giriş sözü ilə açan Assambleyanın sədri Zakir Qaralov Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin Dövlət başçısı cənab Ilham Əliyevin möhkəm siyasi iradəsinə əsaslandığını xüsusi vurğulamaqla bu sahədə həyata keçirilmiş qanunvericilik və institusional islahatlar barədə ətraflı məlumat vermiş, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyəti qeyd olunmaqla Beynəlxalq Antikorrupsiya Akademiyasını bu sahədə ən uğurlu beynəlxalq təşəbbüslərdən biri kimi qiymətləndirmişdir.

Tədbir çərçivəsində Baş prokuror cənab Zakir Qaralov Akademiyanın icraçı katibi və dekanı cənab Martin Kroytner, Türkiyənin BMT-nin Vyana ofisi və Vyanada yerləşən digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi xanım səfir Əminə Birnur Fertekligil, Büroya üzv olan, habelə regional qruplara sədrlik edən ölkələrin nümayəndələri ilə ikitərəfli görüşlər keçirmiş, bu görüşlərdə korrupsiyaya qarşı mübarizə məsələlərinə dair səmərəli fikir mübadiləsi aparılmışdır.

Akademiyanın icraçı katibi və dekanı Martin Kroytnerlə görüş zamanı Baş prokuror Azərbaycan Respublikası ilə dünya miqyasında unikal institutlardan biri olan Beynəlxalq Antikorrupsiya Akademiyası arasında qarşılıqlı münasibətlərin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırmaqla artıq prokurorluq əməkdaşları ilə yanaşı digər dövlət qurumlarının əməkdaşlarının da Akademiyanın təklif etdiyi Magistr və Yay Akademiyası tədris proqramlarının imkanlarından istifadə etdiklərini bildirmişdir.

2014-cü ilin noyabr ayında Assambleyanın Bakı şəhərində baş tutmuş 3-cü sessiyasını məmnunluqla xatırlayan Martin Kroytner Azərbaycan Respublikasının təşkilatın fəaliyyətində rolunun əvəzedilməz olduğunu xüsusi vurğulamışdır.

İclasda tədbir iştirakçılarına ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində son 10 il ərzində görülmüş işlər və əldə edilmiş uğurları əks etdirən ingilis dilində nəşr olunmuş jurnal, Akademiya ilə ölkəmizin dövlət qurumları arasında əməkdaşlığa həsr edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin bülleteninin xüsusi buraxılışı, habelə Baş İdarənin fəaliyyətini əks etdirən buklet və kitabçalar təqdim edilmişdir.

Büronun geniş tərkibli iclasında nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov və Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişlər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Azərbaycanın nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının tədbirlərində iştirak etmişdir






1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının Vyana ofisində təsis edilərək akkreditasiyadan keçmiş, dünya prokurorlarının yeganə qlobal təşkilatı olan, 140-dan çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə ölkəmiz uğurlu əməkdaşlıq edir.

Azərbaycan Respublikası təşkilat yarandığı vaxtlardan onunla işgüzar münasibətlər qurmuş, Baş Prokurorluq və Hərbi Prokurorluq Assosiasiyaya təşkilati üzv kimi qəbul edilmiş, ölkəmizin nümayəndələri uzun illərdir Assosiasiyanın rəhbər qurumları olan Senatda və İcraiyyə Komitəsində Azərbaycanı layiqincə təmsil edirlər.

Sentyabrın 13-dən 17-dək İsveçrənin Sürix şəhərində BPA-nın Senatının və İcraiyyə Komitəsinin iclasları, o cümlədən BPA-nın 20-ci yubiley İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir.

Tədbirlərdə ölkəmizi ədliyyə naziri Fikrət Məmmədovun və Baş prokuror Zakir Qaralovun rəhbərlik etdiyi Prokurorluğun və Ədliyyə Nazirliyinin məsul əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil etmişdir.

Senatın iclasında ədliyyə naziri, BPA-nın senatoru və fəxri üzvü Fikrət Məmmədov iştirak etmişdir. İclasda qurumun gələcək inkişaf perspektivləri müzakirə edilmiş, Azərbaycanın BPA-nın yaradılmasında və sonrakı inkişafında rolu və töhfələri xüsusi vurğulanmışdır.

İcraiyyə Komitəsinin iclasında Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Komitə üzvü Kamran Əliyev iştirak etmişdir. İclas zamanı cari il ərzində BPA-nın tədbirlərində Azərbaycandan olan fərdi üzvlərinin fəal iştirakı barədə məlumat verilmiş, gündəlikdə duran təşkilati məsələlərlə əlaqədar fikir mübadiləsi aparılmış, müvafiq qərarlar qəbul edilmişdir.

İllik Konfransda dünyanın 100-dən çox dövlətindən 500 nəfərin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, mötəbər beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişlər.

Tədbirin təntənəli açılış mərasimində İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa və BPA-nın prezidenti Qerhard Yaroş çıxış edərək korrupsiya ilə mübarizədə prokurorların vacib rolunu qeyd etmişlər, Assosiasiyanın 20 illik tarixinə nəzər salınmışdır.

Qeyd olunmalıdır ki, hələ 2002-ci ildə Təşkilatın İcraiyyə Komitəsinin iclası uğurla Bakıda keçirilmiş, onun üzvləri ümummilli liderimiz

Heydər Əliyev tərəfindən qəbul olunmuş, BPA-nın rəhbərləri Azərbaycana dəfələrlə səfər etmişlər.

İllik Konfransda korrupsiyaya, çirkli pulların yuyulmasına, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, cinayət yolu ilə əldə edilmiş əmlakın qaytarılması, beynəlxalq əməkdaşlıq, müasir İKT-lərin tətbiqi və digər aktual məsələlər müzakirə edilmişdir.

Konfransın plenar iclasında çıxış edən Baş prokuror Zakir Qaralov korrupsiyaya qarşı mübarizənin dövlət başçısı cənab İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqaməti olduğunu qeyd edərək, ölkəmizin bu sahədə bütün beynəlxalq təşəbbüslərə qoşulduğunu, beynəlxalq konvensiyaların ölkə qanunvericiliyinə implementasiyasını, hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində önəmli addımlar atılaraq Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırıldığını diqqətə çatdırmışdır. Baş prokuror həmçinin, ölkə başçısının rəhbərliyi ilə son dövrlərdə həyata keçirilmiş institusional və praktiki tədbirlər, o cümlədən Respublika Prezidentinin təşəbbüsü ilə yaradılmış və Azərbaycanın brendi olan ASAN xidmətin fəaliyyəti, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin uğurlu fəaliyyəti, "Qaynar xətt" əlaqə mərkəzinin işinin səmərəliliyi barədə ətraflı məlumat vermiş, habelə ölkəmizin BPA ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyini vurğulamaqla Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) Assambleyasının sədri kimi tədbirdə iştirak edən Akademiyaya üzv olmayan ölkələri qurumun işinə qatılmağa dəvət etmişdir.

Bundan başqa, Baş prokuror çıxışında Avropa Parlamenti tərəfindən Azərbaycanla bağlı qəbul edilmiş 10 sentyabr tarixli qətnaməyə münasibət bildirərək ikili standartlar siyasətinin bariz nümunəsi olan bu sənədin qərəzli, destruktiv və bəzi siyasi dairələrin sifarişlərinə və maraqlarına uyğun ölkəmizə qarşı aparılan və sistemli xarakter almış təzyiq kampaniyasının davamı olduğunu qeyd etmişdir.

Qeyd olunmalıdır ki, bu qətnamə ilə bağlı ölkəmizin nümayəndə heyəti adından müvafiq bəyanat tədbir iştirakçıları arasında yayılmışdır.

Bəyanatda qeyd olunmuşdur ki, son zamanlar Azərbaycan Respublikasında bir sıra iqtisadi, vergidən yayınma və vəzifə cinayətləri törətmiş qeyri-hökumət təşkilatlarının təmsilçiləri və digər şəxslərin fəaliyyəti istintaq orqanları tərəfindən ifşa edildikdə və məhkəmələr tərəfindən qanunla nəzərdə tutulmuş qaydada qərarlar qəbul edildikdə bəzi beynəlxalq qurumlar tərəfindən subyektiv mülahizələrə əsaslanan birtərəfli və qərəzli münasibət bildirilir. Avropa Parlamenti kimi mühüm bir təsisat tərəfindən məhkəmə və istintaq orqanlarının fəaliyyətinin əsasını təşkil edən qanunun aliliyi və ədalət mühakiməsinə müdaxilənin yolverilməzliyi kimi mühüm prinsiplərə riayət etmədən 10 sentyabr 2015-ci il tarixdə Azərbaycan haqqında belə qətnamənin tələsik qəbul edilməsi təəccüb hissi doğurduğu bildirilmişdir.

Azərbaycan nümayəndə heyəti bildirmişdir ki, bu kimi hərəkətlər istintaqın və məhkəmənin obyektiv aparılmasına süni əngəllər yaratmaqla bərabər beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaradır, həmçinin Azərbaycan Respublikası Avropa İttifaqına daxil olmadığı halda Azərbaycan dövlətinə, xalqımızın milli və mənəvi dəyərlərinə qarşı yönəlməklə ölkənin daxili işlərinə müdaxilə və ədalət mühakiməsinə təzyiqdir, Avropa İttifaqı-Azərbaycan arasında mövcud olan səmərəli əməkdaşlığa və bu əlaqələrin gələcəyinə kölgə salır.

Eyni zamanda bəyan edilmişdir ki, Azərbaycan Respublikasında söz azadlığı, internet azadlığı və jurnalistlərin azad və normal fəaliyyətinin dövlət tərəfindən ən yüksək səviyyədə təmin edilməsinə baxmayaraq konkret jurnalistin döyülməsi nəticəsində ölməsi cinayət hadisəsinin siyasiləşdirilməsi təəccüb hissi doğurur. Qeyd olunmuşdur ki, həmin cinayət hadisəsi törədildikdən dərhal sonra istintaq orqanları tərəfindən cinayəti törətmiş 6 şəxs həbs edilmişdir. İstintaqla müəyyən edilmişdir ki, bu cinayət müxbirin sosial şəbəkələrin birində ifadə edilmiş və şəxsi qərəzliyə səbəb olmuş fikirlərinə görə

törədilmiş və siyasətlə heç bir əlaqəsi olmamışdır.

Bununla yanaşı, Azərbaycan nümayəndə heyəti vurğulamışdır ki, istənilən ölkədə qeyri-hökümət təşkilatlarının fəaliyyəti şəffaf şəkildə və həmin ölkənin qanunlarına uyğun həyata keçirilməlidir.

Bəyan edilmişdir ki, bəzi dövlətlər öz maraqlarına uyğun olaraq məqsədli şəkildə yaradılmış və ümumi qəbul edilmiş tələbləri, o cümlədən Azərbaycan Respublikasının müvafiq qanunvericiliyini pozmaqla fəaliyyət göstərən qeyri-hökümət təşkilatlarının fəaliyyətini maliyyələşdirir, onlara qrant adı altında maliyyə dəstəyi göstərir ki, bu da son nəticədə vergidən yayınma, mənimsəmə cinayətlərinin törədilməsinə və digər neqativ hallara səbəb olur. Aparılmış yoxlamalarla müəyyən edilmişdir ki, bir sıra hallarda qeyri-hökümət təşkilatları qrant adı altında alınmış pulların mənimsənilməsi məqsədilə müxtəlif korrupsiya sxemləri qurmuş, qrant vəsaitlərini həmin dövlətlərin vergi ödəyicilərinin maraqlarına zidd olaraq şəxsi məqsədləri üçün istifadə etmişlər.

Vurğulanmışdır ki, Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası bu sosial bəlaya qarşı səmərəli mübarizənin ümuməhatəli və çoxşaxəli xarakter daşımaqla, dövlət sektoru ilə yanaşı bütün sahələrdə, o cümlədən özəl və qeyri-hökumət təşkilatlarında aparılmasını tələb edir. Lakin Azərbaycan dövləti tərəfindən görülən bu tədbirlər bəzi dairələrdə anlaşılmaz narazılığa səbəb olur.

Nümayəndə heyəti bəyan etmişdir ki, Azərbaycan Respublikasının Avropa Şurasının üzvü olmaqla Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası altında olduğu və qeyd olunan əməllərə hüquqi müstəvidə yekun qiymət verilmədiyi halda hər hansı şəxsin təqsirinin olub-olmaması barədə səsləndirilən fikirlər ən azından təəssüf hissi doğurur.

Bu fikirlər, həmçinin digər iclaslarda, habelə nümayəndə heyəti tərəfindən keçirilən bütün görüşlərdə və danışıqlarda səsləndirilmişdir.

Bildirilməlidir ki, bir çox dövlətlərin nümayəndələri ikili standartların tətbiqindən təəssüflərini bildirərək, Azərbaycan həqiqətlərini reallığa uyğun qəbul etmişlər.

Konfransın anti-korrupsiya məsələlərinə həsr olunmuş xüsusi sessiyasına rəhbərlik edən Kamran Əliyev çıxış edərək BPA tərəfindən yeni yaradılmış anti-korrupsiya vebsaytı, saytın fəaliyyətinə qoşulmuş və qoşulacaq nümayəndələrdən ibarət Anti-korrupsiya forumu barədə ətraflı məlumat vermişdir. Sessiya iştirakçıları dünya prokurorları üçün ilk dəfə olaraq yaradılmış anti-korrupsiya saytının məhz Azərbaycan Prokurorluğu tərəfindən hazırlanmasını xüsusi qiymətləndirmişlər.

Vurğulanmalıdır ki, Azərbaycanın təcrübəsi tədbir iştirakçılarının böyük marağına səbəb olmuş, BPA-nın prezidenti Qerhard Yaroş çıxış edərək diqqəti şəxsən şahidi olduğu ASAN xidmətin fəaliyyətinə cəlb etmiş, xarici dövlətləri onun təcrübəsi ilə yerində tanış olub ölkələrində tətbiqinə çağırmışdır.

BPA-nın ali orqanı olan Ümumi Yığıncaqda qurumun rəhbər orqanlarına seçkilər keçirilmiş, növbəti İllik Konfransın 2016-cı ilin sentyabr ayında İrlandiya Respublikasının paytaxtı Dublin şəhərində keçirilməsi qərara alınmışdır.

Tədbir zamanı Azərbaycan rəsmiləri Assosiasiyanın prezidenti Qerhard Yaroş, həmçinin İsveçrənin Baş prokuroru Maykl Lauber, Rusiyanın Baş prokuroru Yuri Çayka, eləcə də Qazaxıstan, Ukrayna, Albaniya, Çin, Səudiyyə Ərəbistanı, Bəhreyn və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək əməkdaşlığın inkişafına dair müzakirələr aparmışlar.

Konfrans çərçivəsində Azərbaycan Respublikasında son 10 il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən jurnallar, bukletlər və Baş prokurorun çıxışının mətni tədbir iştirakçılarına paylanmışdır.

Tədbirdə ölkəmizin İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri Əkrəm Zeynallı da iştirak etmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Astanada MDB-nin iştirakçısı olan dövlətlərin baş prokurorların əlaqələndirmə şurasının iclası keçirilib



Avqustun 26-dan 29-dək Astanada MDB-nin iştirakçısı olan dövlətlərin baş prokurorların əlaqələndirmə şurasının (BPƏŞ) 25-ci iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Tədbirdə "Korrupsiya ilə mübarizədə Azərbaycan Respublikası prokurorluq orqanlarının iş təcrübəsi" mövzusunda çıxış edən Rüstəm Usubov dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, ölkəmizdə korrupsiya cinayətlərinə qarşı sistemli mübarizənin gücləndirildiyini qeyd edərək bu istiqamətdə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin xüsusi əhəmiyyət daşıdığını göstərmişdir.

Rüstəm Usubov bildirib ki: "Azərbaycanda korrupsiyaya qarşı mübarizə ilə bağlı güclü siyasi iradəyə əsaslanmaqla beynəlxalq təcrübə nəzərə alınaraq sistemli şəkildə mütərəqqi antikorrupsiya qanunvericilik bazası formalaşdırılıb, mühüm institusional tədbirlər həyata keçirilib və bu islahatlar bu gün də davam etdirilməkdədir. Bu gün ölkəmizdə gedən uğurlu inkişaf proseslərinə mane olan məsələlərin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir. Bu sırada korrupsiya və rüşvətxorluq hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə son illərdə bir sıra tədbirlər həyata keçirilib, mübarizə metodlarının daha səmərəli olması üçün qanunvericilik bazası gücləndirilib."

İclasda MDB dövlətlərinin baş prokurorlarının korrupsiyaya qarşı mübarizə, nəqliyyatda qanuniliyə və hüquq qaydalarına əlaqələndirilmiş prokuror nəzarəti tədbirlərinin təmin olunması, ekstremist və terror təzahürlərinə qarşı mübarizə sahəsində iş təcrübəsi müzakirə edilib. Həmçinin ötən il MDB-nin iştirakçısı olan dövlətlərdə cinayətkarlığın, istintaq işinin, prokurorluq fəaliyyətinin, cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq müqavilələrin icrası praktikasının vəziyyəti barədə məlumatlar təhlil olunub. Şura üzvləri ötən il MDB dövlətlərinin cinayətkarlığa, terrorizmə və zorakılıqla müşayiət olunan digər ekstremizm hallarına, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, narkomaniyaya, insan alverinə və qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində orta müddətli əməkdaşlıq proqramlarının icrasını dəyərləndiriblər.

Tərəflər vətəndaşların hüquqlarının müdafiəsi sahəsində prokurorluq orqanlarının fəaliyyəti, 2014-cü ildə cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq müqavilələrin icrası praktikasını və bu işin təkmilləşdirilməsi istiqamətində tədbirlər nəzərdə tutacaqlar.

İclas iştirakçılarına əlaqələndirmə şurasının 2014-2018-ci illər üçün Fəaliyyət Planının 2014-cü ildə icrasının yekunları, BPƏŞ Katibliyinin 2014-cü ildəki fəaliyyətinin nəticələri haqqında hesabat, MDB dövlətlərinin qanunsuz miqrasiyaya qarşı mübarizədə 2015-2019-cu illər üçün əməkdaşlıq şurasının proqramı üzrə icrasına dair iş planı təqdim olunub.




Nəzərdə tutulduğu kimi, iclasda əlaqələndirmə şurasının bayrağı, emblemi və "MDB BPƏŞ-in 20 illiyi" medalı haqqında əsasnamələr, habelə BPƏŞ-in MDB dövlətlərinin Vergi Təhqiqatları Orqanları Rəhbərlərinin Əlaqələndirmə Şurası və Maliyyə Kəşfiyyatı Bölmələri Rəhbərləri Şurası ilə qarşılıqlı fəaliyyətini tənzimləyən sənədlər təsdiq edilib.

26-cı iclasın 2016-cı ildə Belarusda keçiriləcəyi müəyyən edilib.

Tədbir çərçivəsində Azərbaycan və Qazaxıstan nümayəndə heyətinin ikitərəfli görüşü keçirilib. Görüşdə ölkələrimiz arasında mövcud dostluq və strateji tərəfdaşlıq əlaqələrinin daim genişlənməsi, bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb. Prokurorluq




İclas iştirakçıları MDB BPƏŞ yaradılmasının 20 illiyi münasibətilə təsis edilən medalla təltif olunublar.

Tədbirdə Rusiya Federasiyasının Baş prokuroru Yuriy Çayka BPƏŞ-in sədri seçilib. Həmçinin növbəti – fəaliyyətindən, cinayətkarlığa, ekstremizm və terrorizmə qarşı mübarizədən danışılıb.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Vyetnam kommunistlərinin nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuşlar



Vyetnamın Kommunist Partiyası Siyasi Bürosunda Ədliyyə İslahatları üzrə Komissiyasının daimi sədr müavini, nazir xanım Le Thi Thu Banın başçılıq etdiyi nümayəndə heyəti iyulun 4-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuşdur.



Sonra qonaqlar milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi, dövlət orqanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi, vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar. Qo-




naqları salamlayan Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional tədbirlər, habelə Baş İdarənin fəaliyyəti barədə ətraflı məlumat vermiş, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı xüsusi vurğulamışdır.

Baş İdarədə yaradılmış yüksək iş şəraitindən məmnunluğunu ifadə edən qonaq xanım Le Thi Thu Ba ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş naliyyətləri yüksək qiymətləndirmişdir.

Qonaqlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilmişdir.

## Malayziyada antikorrupsiya tədbiri keçirilmişdir

Avqustun 10-dan 21-dək Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində Malayziya Texniki Əməkdaşlıq Proqramı və Malayziya Korrupsiyaya Qarşı Mübarizə Akademiyası tərəfindən "Korrupsiyaya qarşı mübarizə Proqramının Strateji İdarəetməsi üzrə Sertifikat" mövzusunda tədbir keçirilmişdir.

Çin, Pakistan, Özbəkistan, Tacikistan, Şri-Lanka və digər dövlətlərin nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokuroru İsfəndiyar Hacıyev təmsil etmişdir.

İsfəndiyar Hacıyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliye-




vin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində kompleks, sistemli və ardıcıl islahatların həyata keçirildiyi, bu sahədə respublikamızın bir çox beynəlxalq təşkilatlar, ixtisaslaşmış qurumlarla ikitərəfli və çoxtərəfli müqavilələr əsasında qarşılıqlı və səmərəli əməkdaşlıq etdiyi, eyni zamanda "ASAN" xidmət mərkəzlərin fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

Tədbirin yekununda İsfəndiyar Hacıyevə müvafiq sertifikat təqdim edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Prokurorluğun işçiləri müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində Türkiyənin təcrübəsi ilə tanış olmuşlar

Baş prokurorluğun nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olaraq prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində bu ölkənin təcrübəsi ilə tanış olmuşlar. Azərbaycan Respublikası ilə qardaş Türkiyə Respublikası arasında xalqlarımızın ümumi tarixi və milli köklərinə əsaslanan çox yaxın və hərtərəfli dostluq münasibətləri ildən ilə daha surətlə inkişaf edərək həyatın bütün sahələrini, o cümlədən dövlət və ictimai idarəetmə strukturlarının, hüquq-mühafizə orqanlarının fəaliyyətini də əhatə edir. Bu münasibətlərin inkişafı özünü hər iki ölkənin prokurorluqları arasında qarşılıqlı əlaqələrin və əməkdaşlığın genişlənməsində də göstərir. 2015-ci ilin mart ayında Azərbaycan Respublikası Prokurorluğunun, Baş prokuror

cənab Zakir Qaralovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri ölkələrin bu mühüm dövlət orqanları arasında sıx işgüzar əlaqələrinin yeni, daha yüksək mərhələyə keçməsinin əsasını qoymuşdur. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikasının prokurorluqları arasında təcrübə mübadiləsi, tədris və digər sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanmışdır.

Türkiyə Ədliyyə Akademiyasının dəvətinə əsasən Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynovun rəhbərliyi ilə sentyabrın 13-dən 20-dək olan müddətdə Türkiyə Respublikasında səfərdə olaraq müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində əldə edilmiş yeni nailiyyətlər ilə tanış olmaqla təcrübə mübadiləsində iştirak etmişlər.

Səfər zamanı nümayəndə heyəti tərəfindən Azərbaycan xalqının ümummilli lideri möhtərəm Heydər Əliyevin adını daşıyan park və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir ziyarət olunmuşdur. Nümayəndə heyəti Türkiyə Ədliyyə Akademiyasında olmuş, Akademiyanın rəhbəri Yılmaz Akçil tərəfindən qəbul edilmiş, Akademiyada təşkil olunan hakim və prokuror vəzifələrinə namizədlər üçün hazırlıq kurslarının açılışında iştirak etmişdir. Bundan başqa, Türkiyə Respublikasının Ədliyyə sistemində tətbiq edilən müasir informasiya-kommunikasiya texnologiyalarının iş prosesinin, yeni proqramların hazırlanması mexanizminin öyrənilməsi məqsədilə nümayəndə heyəti Ankara Qərb Ədliyyəsində, Ankara şəhərində yerləşən cəzaçəkmə müəssisəsində, Türkiyə Jandarmasının Kriminalistika idarəsində olmuşdur.

Eyni zamanda, nümayəndə heyəti Türkiyə Respublikasının informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində xüsusi yeri olan İnformasiya Texnologiyaları İdarəsində olmuş, Milli Məhkəmə Şəbəkəsi Layihəsi (Ulusal Yarğı Ağı Projesi-UYAP) ilə bağlı ətraflı məlumat verilmişdir. Belə ki, qeyd olunmuşdur ki, Milli Məhkəmə Şəbəkəsi Layihəsi Türkiyə Respublikasının ədliyyə sistemində ilkin yoxlama materiallarının və cinayət işlərinin elektron qaydada hərəkətini həyata keçirir. Türkiyə qanunvericiliyində edilmiş son dəyişikliklərə əsasən yoxlama materiallarının və cinayət işlərinin elektron və kağız variantları arasında uyğunsuzluq olduğu halda üstünlüyün elektron varianta verilməsi müəyyən olunmuşdur. Milli Məhkəmə Şəbəkəsi Layihəsi Türkiyədə tətbiq olunan "E-Dövlət" layihəsinin tərkib hissəsidir. Layihənin hazırlanmasına 1998-ci ildə başlanılmış, 1999-cu ildə İnformasiya Texnologiyaları İdarəsi yaradılmış, 2001-ci ildə idarənin səlahiyyətləri xüsusi qanunla müəyyən edilmişdir. İdarədə rəhbər və rəhbərin müavindən başqa, 13 hakim olmaqla, 19 şöbə fəaliyyət göstərir ki, həmin şöbələrdə də 400 işçi çalışır. Onlardan 110 nəfər işçi kompüter mühəndisidir. İdarənin Türkiyə ərazisində 1000 nəfərin çalışdığı 15 İnformasiya texnologiyaları şöbəsi fəliyyət göstərir.

Milli Məhkəmə Şəbəkəsi Layıhəsi (Ulusal Yarğı Ağı Projesi-UYAP) Türkiyədə 2008-ci ildən tətbiq olunmağa başlanılmışdır. Layihəyə 1500-dən artıq ədliyyə qurumu, Ali Məhkəmə, Konsitusiya Məhkəməsi, bəzi bələdiyyələr, Təhsil Nazirliyi, cəzaçəkmə müəssisələri, poçtlar, daşınmaz əmlakın dövlət reyestri ilə əlaqədar informasiya bazaları, məhkəmə tibbi ekspertiza mərkəzləri və bir sıra digər qurumlar qoşulmuşdur. Layihəyə qoşulan informasiya sistemlərinin sayı 33-ə bərabərdir. UYAP sisteminə 77 sayda digər təşkilatların sistemləri (əhalinin reyestri, daşınmaz əmlakın reyestri və kadastr sistemi, məhkumluq haqqında məlumat sistemi, bank sistemləri, avtomobil




sürücülərinin cərimələri və s.) inteqrasiya edilmişdir. Məhkəmə prosedurunda və ya istintaq müddətində vətəndaşla bağlı lazımi məlumatlar birbaşa UYAP sistemi vasitəsi ilə əldə olunur.

UYAP Türkiyyə Cümhuriyyətinin Ədliyyə Nazirliyinin mərkəzi aparatının, Türkiyənin bölgələrindəki ədliyyə mərkəzlərinin, HSYK (Hakimlər və Prokurorlar Yüksək Şurası) və o cümlədən məhkəmə ilə əlaqəli digər qurumların proqram təminatı və avadanlıq olaraq daxili prosedurlarının avtomatlaşdırılmasını və informasiyanın idarəolunmasını təşkil edən informasiya sistemidir. UYAP sistemi elektron imzanı dəstəkləyir, elektron sənəd dövriyyəsi, elektron cinayət, elektron məhkəmə və SEGBİS (Ses ve Görüntü Bilişim Sistemi) videokonferans sistemlərini vahid pəncərə olmaqla özündə ehtiva edir . Sistemi hər gün ölkənin bütün hakimləri, prokurorları və vəkilləri daxil olmaqla 180 min istifadəçi istifadə edir. Hər gün UYAP sisteminə təqribən 3,7 milyon elektron qaydada imzalanmış sənəd daxil olur.

UYAP sisteminə inteqrasiya edilmiş SEGBİS videokonferans sistemi vasitəsi ilə məhkumların məhkəməyə gətirilmədən birbaşa cəzaçəkmə müəssisəsindən məhkəmədə iştirak etməsi təmin edilir.UYAP sistemində qeydiyyatdan keçmiş vətəndaşlara göndərilən bildirişlər SMS xidməti vasitəsi ilə yerinə yetirilir.

Nümayəndə heyətinin üzvlərinə UYAP sisteminin öyrənilməsinə dair təlimlərdə iştirak etmələrinə dair Sertifikat təqdim edilmişdir. Səfər çərçivəsində Türkiyə Ədliyyə Akademiyası ilə Azərbaycan Respublikası Prokurorluğu arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

**№ 10/57**

**Bakı şəhəri** **05 iyun 2015-ci il**

**Cinayət təqibi zamanı prokurorluq orqanlarında təqsirsizlik prezumpsiyasının təmin olunması haqqında**

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının bir çox beynəlxalq müqavilələrə qoşulması, habelə beynəlxalq təşkilatlara üzv olması nəticəsində, həmçinin, 2001-ci ildən Avropa Şurasına üzv olduqdan sonra ölkə parlamentinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanı ratifikasiya etməsi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin səmərəli təmin olunmasına və demokratik təsisatların inkişafına daha münasib şərait formalaşmış, hər bir şəxsin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmək hüququ yaranmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 21-ci maddəsinə əsasən hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Konstitusiyanın 127-ci maddəsinin IX hissəsində vurğulanmışdır ki, ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

Təqsirsizlik prezumpsiyası hamılıqla qəbul olunmuş hüquq olmaqla, "İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin 11-ci maddəsinin 1-ci bəndində, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 14-cü maddəsinin 2-ci bəndində və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinin 2-ci hissəsində də təsbit olunmuşdur. Həmin müddəalara görə, cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri məhkəmə araşdırması vasitəsilə qanun əsasında sübut edilənədək təqsirsiz hesab olunur. Təqsirsizlik prezumpsiyası hüququ ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsidir və cinayət təqibi zamanı onun həyata keçirilməsi ilə bağlı bütün tələblərə əməl olunmalıdır.

Təqsirsizlik prezumpsiyası ədalət mühakiməsinin əsas prinsiplərindən biri olmaqla İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnda prioritet məsələ kimi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 19 yanvar 2006-cı il tarixli Fərmanının 6-cı bəndində presedent hüququnun öyrənilməsi işinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınması tövsiyə edilmişdir.

Həmçinin, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında" Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 1 dekabr 2006-cı il tarixli 09/84 nömrəli əmrə əsasən, ibtidai araşdırma aparılarkən, ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilərkən və məhkəmədə dövlət ittihamı müdafiə edilərkən Konvensiyanın müddəaları İnsan hüquqları üzrə Avropa Məhkəməsinin konkret işlərə baxarkən verdiyi şərh və izahlara uyğun mənada nəzərə alınmalı və tətbiq edilməlidir.

Azərbaycan Respublikasının iştirakçısı olduğu və tərəfdar çıxdığı beynəlxalq hüququn norma və prinsiplərində, həmçinin, milli qanunvericilikdə təsbit olunmuş təqsirsizlik prezumpsiyası cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxsin onun təqsiri qanunla nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılmasına təminat verir. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Cinayət-prosessual qanunvericiliyin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedur daxilində ittihamın sübuta yetirilməsində

aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır.

Cinayət təqibi zamanı bəzi hallarda təqsirsizlik prezumpsiyasının müddəalarına tam riayət olunmaması hallarına rast gəlinir. Bununla əlaqədar olaraq İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Avropa Şurasına üzv olan bir çox dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə bağlı qərarları vardır. Pozuntular əsasən cinayət törətməkdə ittiham olunan şəxs barəsində qanuni qüvvəyə minmiş məhkəmə hökmü olmadan kütləvi informasiya vasitələrində onun təqsirli olması fikrinin əks etdirilməsi, habelə sübutetmə yükünün şübhəli və ya təqsirləndirilən şəxsin üzərinə qoyulması, şübhəli və ya təqsirləndirilən şəxslərin ifadə verməkdən imtina etmək hüquqlarına hörmətsizlik edilməsi halları ilə bağlı olmuşdur. Bu baxımdan, şəxsin barəsində qanuni qüvvəyə minmiş məhkəmə hökmü olmadan onun təqsirliliyinə dəlalət edən ifadələrdən istifadə olunmasına yol verilməməli, təqsirsizlik prezumpsiyasını poza biləcək nitqlərin, bəyanatların və ya materialların yayımının qarşısı alınmalıdır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə əsasən belə ifadələrdən istifadə edilməsi Konvensiyanın 6-cı maddəsinin 2-ci hissəsinin pozulması hesab olunur.

Qeyd edilənləri nəzərə alaraq, cinayət təqibi zamanı təqsirsizlik prezumpsiyasının təmin olunması, qanun pozuntularına yol verilməsinin qarşısının alınması, müəyyən olunmuş pozuntu, nöqsan və çatışmazlıqların təxirəsalınmadan aradan qaldırılması məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R   E D İ R Ə M :**

**1.** Cinayət təqibi zamanı təqsirsizlik prezumpsiyasının təmin olunması məqsədilə Azərbaycan Respublikasının Konstitusiyasında, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyada və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində müəyyən olunmuş tələblərə bütün prokurorluq işçiləri tərəfindən dönmədən əməl edilsin.

**2.** Məhkəməyədək icraat və məhkəmə baxışı mərhələlərində cinayət təqibi həyata keçirilərkən prokurorluq işçilərindən tələb edilsin ki, təqsirsizlik prezumpsiyasının müddəalarına uyğun olaraq şəxsin barəsində qanuni qüvvəyə minmiş məhkəmə hökmü olmadan onun cinayət qanunu ilə nəzərdə tutulmuş hər hansı əməli törətməsinin beynəlxalq və milli qanunvericiliyin tələblərinə zidd olaraq bəyan edilməsinə yol verilməsin.

**3.** Şəxsin barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan faktlara qiymət verən və şəxsin qanuna uyğun olaraq təqsirli hesab edilməsindən əvvəl ictimaiyyəti onun təqsirli olduğuna inanmağa sövq edən bəyanatların yayılmasının təqsirsizlik prezumpsiyasının pozulması kimi qəbul edilməsi nəzərə alınsın. Şəxsin barəsində qanuni qüvvəyə minmiş məhkəmə hökmü olmadan onun təqsirliliyinə dəlalət edən ifadələrdən istifadə olunmasına, təqsirsizlik prezumpsiyasını poza biləcək hər hansı nitqlərə, bəyanatlara, müsahibələrə və digər hallara yol verilməsin.

**4.** Baş Prokurorluğun Mətbuat xidmətindən, həmçinin, ictimaiyyətlə, kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əlaqələrə görə məsul olan prokurorluq əməkdaşlarından tələb edilsin ki, cinayət hadisəsi barədə kütləvi informasiya vasitələrinə məlumat verilərkən cinayətin törədilməsində hər hansı şəxsin təqsirli olduğuna əsaslı dəlillər olsa belə, cinayətin həmin şəxs tərəfindən törədilməsinin qeyd olunmasının yolverilməzliyi təmin edilsin.

**5.** "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsi üzrə təmin edilən və təqsirsizlik prezumpsiyası ilə bilavasitə bağlı olan hüquqlar sırasında şəxsin ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq hüququnun olmasını nəzərə alaraq, təqsirləndirilən şəxsin "nədə təqsirləndiyini bilmək" hüququ cinayət təqibi zamanı təmin edilsin.

**6.** Təqsirsizlik prezumpsiyasının şəxsin özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu olmaması barədə tələbinə əməl edilməsi məqsədilə barəsində cinayət işi başlanan şəxsin iştirakı ilə istintaq hərəkətləri həmin şəxs şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındıqdan sonra aparılmaqla onun müdafiə hüquqları tam və hərtərəfli təmin edilsin.

**7.** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri nəzərə alınaraq cinayət təqibi zamanı barəsində tutulma tətbiq edilən şəxsin tutulmasının əvvəlinin tutulma haqqında protokolda onun azadlığının faktiki məhdudlaşdırıldığı vaxtdan qeyd edilməsi təmin olunsun.

**8.** Cinayət təqibinin həyata keçirilməsi zamanı müdafiə tərəfinin təqdim etdiyi vəsatətdə təqsirsizlik prezumpsiyasının pozulmasına dair xüsusatlar tam, hərtərəfli və obyektiv araşdırılsın və əsaslandırılmış qərarın qəbul edilməsi təmin edilsin.

**9.** İbtidai araşdırma zamanı təqsirləndirilən şəxsin cinayət törətməkdə öz təqsirini etiraf etməsi ilə kifayətlənərək ittihamın irəli sürülməsinin qarşısının alınması məqsədilə təqsirləndirilən şəxsin cinayət törətməsi yalnız iş üzrə bütün sübutların məcmusu ilə təsdiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilsin.

**10.** İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar təqsirləndirilən şəxsin müdafiə hüququnun real təmin olunmasını, onun öz müdafiəsi üçün gətirdiyi dəlillərin ibtidai istintaq zamanı tam, hərtərəfli və obyektiv yoxlanılmasını təmin etsinlər. Təqsirləndirilən şəxsin öz müdafiəsi üçün gətirdiyi dəlillərin və onların yoxlanılması zamanı toplanmış sübutların ittiham aktında əks etdirilməsinə nəzarət edilməsi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlardan tələb edilsin.

**11.** Cinayət təqibi həyata keçirilərkən müdafiəçinin təqsirləndirilən şəxsin qanuni mənafeyinə zidd olaraq hər hansı hərəkəti etməsi, o cümlədən təqsirləndirilən şəxsin razılığı olmadan törədilmiş cinayətlə əlaqəsini təsdiq etməsi, ona qarşı qaldırılmış mülki iddianı qəbul etməsi, onun iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan imtina etməsi və hüquqlarının həyata keçirilməsinə hər hansı formada mane olması halları zamanı ibtidai araşdırma aparan müstəntiq və prokurorlar, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar, habelə təqsirləndirilən şəxsin məhkəmə çıxışlarında barəsində bəraət hökmünün çıxarılmasını tələb etməsinə baxmayaraq, müdafiəçinin onun əməlinin tövsif olunması və ya yüngül cəza təyin edilməsinə dair müraciəti kimi qanun pozuntularının aradan qaldırılması üçün dövlət ittihamçıları öz səlahiyyətləri daxilində cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq tədbirlər görsünlər.

**12.** Cinayət mühakimə icraatı zamanı “Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi”nə əməl edilməklə prokurorluq işçiləri tərəfindən təqsirsizlik prezumpsiyasına daim riayət edilməklə ədalətli məhkəmə baxışına mənfi təsir göstərən, əvvəlcədən ictimai rəyin formalaşdırılmasına yönəlmiş hərəkətlərə və ifadələrin işlədilməsi hallarına yol verilməsin.

**13.** Məhkəmə baxışı zamanı məhkəməyədək icraat mərhələsində təqsirləndirilən şəxsin təqsirsizlik prezumpsiyası hüququnun pozulması halları aşkar edilərkən həmin pozuntuları törətmiş şəxslər barəsində xüsusi qərarların çıxarılması üçün dövlət ittihamçıları tərəfindən təşəbbüs göstərilsin.

**14.** Cinayət təqibi zamanı şəxsin təqsirsizlik prezumpsiyası hüququnun pozulması hallarına yol vermiş əməkdaşlar barəsində araşdırmalar “Cinayət mühakimə icraatında ictimai və ictimai-xüsusi ittihamın müdafiəsi üzrə prokurorluğun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi tədbirləri barədə” 27 yanvar 2005-ci il tarixli, 08/8-09/2s nömrəli və “Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında” 28 iyul 2010-cu il tarixli, 10/70 nömrəli əmrlərin tələblərinə əməl edilməklə müəyyən edilmiş qaydada aparılsın.

**15.** Prokurorluq işçiləri tərəfindən təqsirsizlik prezumpsiyasına dair milli və beynəlxalq hüququn, həmçinin, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının dərindən öyrənilməsi məqsədilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində müntəzəm olaraq ixtisasartırma kursları təşkil edilsin. Məşğələlərin keçirilməsinə bu sahədə daha hazırlıqlı və ixtisaslı işçilər cəlb olunsunlar.

**16.** Baş Prokurorluğun struktur qurumlarında və tabe prokurorluqlarda keçirilən tədris məşğələlərinin tematik planlarına təqsirsizlik prezumpsiyasına dair mövzular, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təqsirsizlik prezumpsiyası ilə əlaqədar qərarları daxil edilsin və bu sahədə işçilərin nəzəri və peşə hazırlığının artırılması təmin edilsin.

**17.** Əmrin icrasına nəzarət Baş prokurorun birinci müavini və müavinlərinə həvalə edilsin.

**18.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun bütün struktur qurumlarına və tabe prokurorluqlara göndərilsin və “Azərbaycan Prokurorluğu” jurnalında dərc olunsun.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92; Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1249-IVQD nömrəli Qanunu) 21.1.5-ci maddəsində “xarici ölkələrdə” sözləri “xarici ölkələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş təhsil müəssisələrində” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2015-ci il
№ 1302-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605; 2008, № 12, maddə 1049; 2010, № 4, maddələr 265, 276; 2012, № 6, maddələr 512, 529; 2013, № 1, maddə 18) 14.6-cı maddəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 may 2015-ci il
№ 1299-IVQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**“Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27

sentyabr tarixli 935 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486; 2007, № 5, maddə 459; 2008, № 6, maddə 498, № 8, maddə 721) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Fərmanın adında və mətnində "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində" sözləri "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında" sözləri ilə əvəz edilsin.

**2.** Fərmanın 2-ci hissəsi ləğv edilsin.

**3.** Fərmanın 3-cü hissəsində "Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ümumi şöbəsi" sözləri "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi" sözləri ilə əvəz edilsin.

**4.** Həmin Fərmanla təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat" üzrə:

**4.1.** Təlimatın adında "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində" sözləri "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında" sözləri ilə əvəz edilsin;

**4.2.** I – XVII hissələrin adlarının qarşısındakı rum rəqəmləri ərəb rəqəmləri ilə əvəz edilsin;

**4.3.** 60-cı, 62-ci və 84-cü bəndlərdən, 90-cı bəndin ikinci abzasından, 92-ci, 101-ci və 102-ci bəndlərdən ",bir qayda olaraq," sözləri çıxarılsın;

**4.4.** 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1. Bu Təlimat dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında (bundan sonra – təşkilatlar) kargüzarlığın aparılması işini, o cümlədən sənədlərin hazırlanmasını, qeydiyyatını, hərəkətini, icrasını, uçotunu və arxivə verilməsini tənzimləyir. Yerli icra hakimiyyəti orqanlarında kargüzarlıq "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat" əsasında aparılır. Bu Təlimatın müddəaları təşkilatlarda vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına şamil edilmir." ;

**4.5.** 2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Təşkilatlarda kargüzarlıq Azərbaycan Respublikasının dövlət dilində aparılır.";

**4.6.** 4.1-ci yarımbənddə "daxil olan sənədləri" sözlərindən əvvəl "poçt, elektron poçt, faks, telefonoqram, feldyeger rabitəsi vasitəsilə və kargüzarlıq xidmətinə bilavasitə" sözləri əlavə edilsin;

**4.7.** 4.3-cü yarımbənddə "icra müddətinə" sözlərindən sonra ", bu Təlimatın tələblərinə uyğun tərtibinə və arxivləşdirilməsinə" sözləri əlavə edilsin;

**4.8.** 4.6-cı və 4.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.6. sənədləri işlərin nomenklaturu üzrə formalaşdırmaq və arxivə təhvil vermək;

4.7. sənədləri qoruyub saxlamaq və xidməti zərurətlə əlaqədar onlardan istifadəni təmin etmək;";

4.9. 4.8-ci bənddə "kargüzarların" sözü "kargüzarlığı aparan işçilərin" sözləri ilə əvəz edilsin;

**4.10.** 5-ci bəndin dördüncü və beşinci abzasları aşağıdakı redaksiyada verilsin:

"Mərkəzləşdirilmiş kargüzarlıq sistemində sənədlərin və qeydə alınması tələb olunmayan korrespondensiyanın (16 nömrəli əlavə) qəbulunu, göndərilməsini, uçotunu, struktur bölmələrinə paylanmasını, habelə sənədlərin qeydə alınmasını, rəsmiləşdirilməsini, işlərin formalaşdırılmasını kargüzarlıq xidməti həyata keçirir.

Mərkəzləşdirilməmiş kargüzarlıq sistemində isə sənədlərin və qeydə alınması tələb olunmayan korrespondensiyanın qəbulunu, göndərilməsini, uçotunu, sənədlərin struktur bölmələrinə paylanmasını kargüzarlıq xidməti, sənədlərin qeydə alınmasını, rəsmiləşdirilməsini, işlərin formalaşdırılmasını isə struktur bölmələri həyata keçirirlər.";

**4.11.** 7.1-ci və 119.1-ci yarımbəndlərdə "qanunvericilik aktlarının" sözləri "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

**4.12.** 9-cu bəndin ikinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin sənədlər təşkilat rəhbərinin imzası və təşkilatın gerbli möhürü ilə təsdiqlənir.";

**4.13.** 11.4-cü yarımbənddə "(küncdə və ya eninə)" sözləri "eninə," sözü ilə əvəz edilsin;

**4.14.** 13-cü bənddən "bir qayda olaraq" sözləri çıxarılsın;

**4.15.** 17.4-cü yarımbəndin ikinci abzası çıxarılsın;

**4.16.** 20-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Sənədin qeydiyyat nömrəsi işin nomenklatur nömrəsindən və sənədin qeydə alınmasının sıra nömrəsindən ibarətdir, sənədin qeydə alınması zamanı verilir və qeydiyyat ştampında vərəqlərin sayından və tarixdən əvvəl əks etdirilir.";

**4.17.** 24-cü bənddə "təsdiq edilməsi" sözlərindən sonra ", qeydə alınması" sözləri əlavə edilsin;

**4.18.** 25-ci bənd üzrə:

**4.18.1.** birinci abzasda "Bir qayda olaraq, sənədin" sözləri "Sənədin" sözü ilə əvəz edilsin;

**4.18.2.** ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"İmzanın tərkibinə sənədi imzalamış şəxsin vəzifəsinin adı, onun şəxsi imzası, adı və soyadı daxildir. Sənədi imzalamalı olan vəzifəli şəxs müvəqqəti işdə olmadıqda, sənədi onun müavini və ya səlahiyyətlərini icra edən şəxs imzalayır. Bu zaman sənədi imzalamış şəxsin faktiki vəzifəsi, adı və soyadı göstərilməlidir. Sənədi "əvəzinə" sözünü yazmaqla və ya vəzifənin adının qabağına xətt çəkməklə imzalamaq qadağandır. Dövlət orqanının rəhbərinə göndərilən sənədlər göndərən dövlət orqanının rəhbəri tərəfindən, o olmadıqda isə onun vəzifəsini icra edən müavini tərəfindən imzalanır.".

**4.18.3.** yeddinci və səkkizinci abzaslar çıxarılsın;

**4.19.** 29-cu bənd ləğv edilsin;

**4.20.** 30-cu bənddə "Bir qayda olaraq, aşağıdakı" sözləri "Aşağıdakı" sözü ilə əvəz edilsin;

**4.21.** 33-cü bəndin birinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Kompyuter üsulu ilə yazılan sənədlərin (maliyyə, statistik və digər cədvəllər istisna olmaqla) mətni "Arial" 12 şrifti ilə A4 formatda bir və ya bir yarım sətirarası intervalla yazılmalıdır.";

**4.22.** 39-cu bənddə "Böyük hərflə yazılması qanunvericilikdə bilavasitə nəzərdə tutulan" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 avqust tarixli 108 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin orfoqrafiya qaydalarına" uyğun olaraq birinci hərfi böyük yazılan" sözləri ilə əvəz edilsin;

**4.23.** 44-cü bənddə "Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi" sözləri "Dövlət Statistika Komitəsi" sözləri ilə əvəz edilsin;

**4.24.** 52-ci bəndin birinci abzasında "və video yazılar" sözləri ", video yazılar və elektron daşıyıcılarda olan yazılar" sözləri ilə əvəz edilsin;

**4.25.** 53-cü bəndin ikinci cümləsində "yığcam, bir qayda olaraq," sözləri "bu Təlimatın 54-cü bəndinin ikinci abzasında nəzərdə tutulmuş hal istisna olmaqla, yığcam," sözləri ilə əvəz edilsin;

**4.26.** 55-ci bəndin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"İcraçı qismində təşkilatlar və ya struktur bölmələri, tədbirin icrası konkret şəxsə tapşırıldıqda isə vəzifəli şəxs göstərilir.";

**4.27.** 68-ci bənddə "Bir qayda olaraq, protokolun" sözləri "Protokolun" sözü ilə əvəz edilsin;

**4.28.** 84-cü bənddə "və ya hadisələrin" sözləri ", hadisələrin və ya sənədlərin (qeydiyyat nömrəsi və tarixi göstərilməklə)" sözləri ilə əvəz edilsin;

**4.29.** 93-cü bənddə "keçirilməsi" sözü "köçürülməsi" sözü ilə əvəz edilsin;

**4.30.** 94-cü bəndin ikinci abzası üçüncü abzas hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Əsas icraçı sənədin icrası ilə əlaqədar rəhbərliyə məlumat üçün hazırlanmış arayışı digər icraçı (icraçılar) ilə razılaşdırmalıdır. Digər icraçı (icraçılar) arayışla razı olmadıqda, ayrıca arayış tərtib edir və rəhbərliyi məlumatlandırmaq üçün kargüzarlıq xidmətinə təqdim edir.";

**4.31.** 119-cu bənddə "xüsusi" sözü çıxarılsın;

**4.32.** 119.2-ci yarımbənddə "hakimiyyəti" sözü çıxarılsın;

**4.33.** 123-cü bənd aşağıdakı redaksiyada verilsin:

"123. Təşkilat rəhbərinin sənədin icra müddətini icraçının (icraçıların) əsaslandırılmış yazılı xahişi ilə uzatmaq hüququ vardır.";

**4.34.** 126-cı bənddə "Nəzarət vərəqələrində" sözləri "Elektron sənəd dövriyyəsi sistemi tətbiq edilən təşkilatlar istisna olmaqla, nəzarət vərəqələrində" sözləri ilə əvəz edilsin;

**4.35.** 138-ci bəndin ikinci abzasının birinci cümləsində "Təşkilatda olan sənədlər qanunvericiliklə" sözləri "Təşkilatda kağız və (və ya) elektron formada olan sənədlər "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri ilə əvəz edilsin;

**4.36.** aşağıdakı məzmunda 18-ci hissə əlavə edilsin:

"18. Elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətləri

**140.** Təşkilatların kargüzarlığı elektron formada da aparmaq hüququ vardır.

**141.** Sənəd elektron formada qəbul edildikdə, təşkilat bu Təlimatın 144-cü bəndində göstərilən informasiya sistemini tətbiq etməlidir.

**142.** Təşkilatlarda elektron sənədlərin hazırlanmasına dair ümumi tələblər aşağıdakılardan ibarətdir:

**142.1.** elektron sənəd "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilən tələblərə cavab verməlidir;

**142.2.** elektron sənəd "Unicode" standartını, "UTF-8" formatını dəstəkləməlidir;

**142.3.** elektron sənədin cədvəl, təqdimat, mətn, qrafik və arxivləşdirmə redaktorlarında oxunma və redaktə olunma imkanları olmalıdır;

**142.4.** elektron sənəd "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsi ilə müəyyən edilmiş quruluşda olmalıdır;

**142.5.** elektron sənədin razılaşdırılması müvafiq vəzifəli şəxsin elektron və ya gücləndirilmiş elektron imzasının əlavə edilməsi yolu ilə həyata keçirilməlidir;

**142.6.** elektron sənədə qoşulan bütün əlavələr vahid elektron faylda birləşdirilməli və həmin sənədi təsdiq etmək səlahiyyəti olan şəxsin elektron və ya gücləndirilmiş elektron imzası ilə təsdiqlənməlidir;

**142.7.** elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda kağız daşıyıcıda daxil olan sənədlər və onların əlavələri skan edilərək, eyni formatda olan vahid elektron fayla çevrilir.

**143.** Elektron sənədin əsli və surəti, aşağıda göstərilən tələblər də nəzərə alınmaqla, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanır və təsdiq edilir:

**143.1.** elektron sənədin surəti kağız daşıyıcıda olur;

**143.2.** elektron sənədin surətində onun yaradıldığı tarix və sənədi qəbul edən informasiya sisteminin adı göstərilir;

**143.3.** elektron sənədin surətinə əl və ya çap üsulu ilə "Elektron sənədin surəti. __vərəq" sözləri yazılır və təşkilatın kargüzarlıq xidmətinin gerbsiz möhürü ilə təsdiqlənir.

**144.** Təşkilatlarda elektron sənədlərlə kargüzarlığın aparılması üçün aşağıdakı funksiyaların həyata keçirilməsini təmin edən informasiya sistemi tətbiq olunur:

**144.1.** elektron sənədin yaradılması;

**144.2.** rekvizitlərin və gücləndirilmiş elektron imzanın əlavə edilməsi;

**144.3.** elektron sənədin göndərilməsi;

**144.4.** elektron sənədin həqiqiliyinin yoxlanılması;

**144.5.** elektron sənədin alınmasının təsdiqi;

**144.6.** daxil olan və ya göndərilən elektron sənədin qeydiyyatı;

**144.7.** elektron sənədin yaradılması, qeydə alınması, göndərilməsi və saxlanılması zamanı kollektiv işin təmin edilməsi;

**144.8.** elektron sənədin icrasına nəzarət;

**144.9.** elektron sənədin axtarışı;

**144.10.** elektron sənədin saxlanılması.

**145.** Elektron sənəd aşağıdakı məlumatlar yoxlandıqdan sonra qəbul edilir və qeydə alınır:

**145.1.** elektron imza vasitələrindən istifadə etməklə, yoxlama məlumatları əsasında elektron sənədi təsdiq edən gücləndirilmiş elektron imzanın həqiqiliyi;

**145.2.** elektron sənədin bütün rekvizitləri;

**145.3.** gücləndirilmiş elektron imzadan istifadə etmiş imza sahiblərinin səlahiyyətləri.

**146.** Elektron sənəd çap edilərkən avtomatik olaraq birinci səhifənin üz tərəfində aşağıdakıları özündə əks etdirən qeydiyyat şifrəsi və ya ştrix-kod yerləşdirilməlidir:

**146.1.** təşkilatın tam adı;

**146.2.** təşkilatın hüquqi ünvanı;

**146.3.** elektron sənədin qeydiyyat nömrəsi və qeydiyyat tarixi.

**147.** Elektron sənəd göndərilməzdən əvvəl göndərən onun düzgün tərtib edildiyini (elektron imzanın, əsas və əlavə rekvizitlərin olmasını) və ünvanlanmasını yoxlayır.

**148.** Elektron sənədin qəbul edilməsi və qeydiyyatı onu göndərənə informasiya sistemi tərəfindən aşağıdakıları özündə əks etdirən elektron bildirişin göndərilməsi ilə təsdiq olunur:

**148.1.** bildirişi göndərən haqqında məlumatlar;

**148.2.** elektron sənədin qəbul edilməsi tarixi və vaxtı;

**148.3.** elektron sənədin qeydiyyatı tarixi və nömrəsi.

**149.** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsi ilə müəyyən edilmiş hallarda alan elektron sənədi göndərən tərəfindən göndərilməmiş hesab etməlidir.

**150.** Göndərən tərəf elektron sənədin qəbul edildiyi barədə elektron bildirişi alanadək, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinə əsasən elektron sənəd alınmamış hesab olunur. Elektron sənədin göndərilməsindən sonra göndərənin göstərdiyi və ya tərəflərin razılığı ilə müəyyən edilmiş müddət ərzində bildiriş alınmadıqda, göndərən bu barədə alanı məlumatlandırır və digər rabitə vasitələrindən istifadə etməklə elektron sənədin məzmununu ona çatdırır.

**151.** Elektron sənəd kimi qeydə alınmış sənəd kağız daşıyıcıda da daxil olduqda, onun üzərinə elektron sənədin qeydiyyat nömrəsini və tarixini əks etdirən ştamp vurulur.

**152.** Elektron sənəd dövriyyəsi sistemi tətbiq olunan təşkilatlarda alınan və göndərilən elektron sənədlər, o cümlədən nəzarətdə olan sənədlər hərəkətin bütün mərhələlərində elektron qeydiyyat jurnalında müvafiq qeyd aparılmaqla qəbul edilir və təhvil verilir (10 və 11 nömrəli əlavələrə uyğun olaraq, elektron sənəd dövriyyəsində imza tələbi istisna olmaqla).

**153.** Elektron sənədlərin və onların arxivlərinin saxlanılması qaydası:

**153.1.** elektron sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq elektron informasiya daşıyıcılarında onların bu daşıyıcılarda bütövlüyünü yoxlamağa imkan verəcək formada saxlanılmalıdır;

**153.2.** elektron sənədlərin elektron informasiya daşıyıcılarında saxlanılması müddəti müvafiq sənədlərin kağız daşıyıcıları üçün "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş müddətdən az olmamalıdır;

**153.3.** elektron sənədlərdə olan informasiyadan gələcəkdə istifadə, həmçinin elektron sənədlərin kağız daşıyıcıda surətlərinin çıxarılması mümkün olmalıdır;

**153.4.** elektron sənədin onun yaradıldığı, göndərildiyi və ya alındığı formatda bərpası mümkün olmalıdır;

**153.5.** elektron sənəddə onun mənbəyini və təyinatını, onu göndərəni, qəbul edəni, göndərilmə və qəbul edilmə vaxtını və tarixini müəyyənləşdirməyə imkan verən informasiya saxlanılmalıdır;

**153.6.** "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda və ya iştirakçılar arasındakı müqavilədə başqa hal nəzərdə tutulmadıqda, elektron sənədlər onların yaradıldığı, göndərildiyi və ya qəbul edildiyi formatda saxlanılır;

**153.7.** elektron sənədlər daimi saxlanılmaq üçün dövlət arxivinə elektron informasiya daşıyıcısında saxlandığı formatda təhvil verilir;

**153.8.** elektron sənədlərin arxivləri icazəsiz daxilolma, məhv edilmə və (və ya) təhrif edilmə hallarından mühafizə olunmalıdır.

**154.** Elektron sənədin mühafizəsi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"yə uyğun olaraq təmin edilir. ".

**4.37.** Təlimatın 1 nömrəli əlavəsi aşağıdakı redaksiyada verilsin:

“Təşkilat blankının nümunəsi
(eninə)

Azərbaycan Respublikası Dövlət gerbinin təsviri

AZƏRBAYCAN RESPUBLİKASININ
DAXİLİ İŞLƏR NAZİRLİYİ

Poçt indeksi ______________________, Bakı şəhəri,

___________________________küçəsi_____________

Tel:_________________ Faks:___________________

Elektron poçtu_______________________________

“___”____________________il ”;

**4.38.** Təlimatın 4 nömrəli əlavəsində “İqtisadi İnkişaf Nazirliyi” sözləri “İqtisadiyyat və Sənaye Nazirliyi” sözləri ilə əvəz edilsin;

**4.39.** Təlimatın 8 nömrəli əlavəsində “Mədəniyyət Nazirliyi” sözləri “Mədəniyyət və Turizm Nazirliyi” sözləri ilə əvəz edilsin;

**4.40.** Təlimatın 9 nömrəli əlavəsi aşağıdakı redaksiyada verilsin:

“Qeydiyyat ştampının nümunələri

| Təşkilatın adı |
|---|
| Daxilolma №______________________________ |
| ________vərəq |
| “___”_______________________il |

Ölçüləri:
5,5 X 2,5 sm.

| Nəzarətdədir |
|---|

4 X 1,0 sm.

| Cavabla birlikdə qaytarılmalı |
|---|

4 X 1,5 sm.

| Təcili |
|---|

4 X 1,0 sm.”

**4.41.** Təlimata aşağıdakı məzmunda 16 nömrəli əlavə daxil edilsin:

*"Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş Təlimata 16 nömrəli əlavə*

**Qeydə alınması tələb olunmayan korrespondensiyanın**

**SİYAHISI**

**1.** Reklam xarakterli bukletlər, bildirişlər, plakatlar, qiymət cədvəlləri
**2.** Dəvətnamələr, biletlər, toplantı və konfrans proqramları, təbrik açıqcaları
**3.** Mühasibat sənədləri, müqavilələr, hesab-fakturalar, smetalar
**4.** Kitab, qəzet, jurnal, bülleten və digər dövri mətbu nəşrlər
**5.** Statistik və hesabat xarakterli məcmuələr, qrafiklər və cədvəllər
**6.** Məlumat üçün göndərilən müxtəlif sorğu-informasiya materialları, icmallar, tədris proqramları, hidrometeoroloji və digər proqnozlar.".

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**5.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**5.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**5.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**5.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2015-ci il
№ 569

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1302-IVQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1302-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini

üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.5-ci maddəsinə uyğun olaraq, təhsili davam etdirmək üçün çağırışa möhlət verilən xarici ölkələrin təhsil müəssisələrinin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

**1.4.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.5.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1302-IVQD nömrəli Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2015-ci il
№ 557

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 621; 2005, № 2, maddə 64, № 8, maddə 718; 2006, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2010, № 4, maddə 287, № 7, maddə 610; 2011, № 11, maddə 998; 2013, № 9, maddə 1052, № 12, maddə 1509; 2014, № 2, maddə 108, № 4, maddə 361, № 6, maddə 632) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4.2.3-cü yarımbənddə "və 7.2-ci maddəsində" sözləri ", 7.2-ci maddəsində və 12.2-ci maddəsində" sözləri ilə əvəz edilsin;

**1.2.** 4.2.5-ci yarımbənddən "12.2-ci maddəsində," sözləri çıxarılsın;

**1.3.** 4.2.7-ci yarımbəndin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmaqla həmin Fərmana 4.2.8-ci və 4.2.9-cu yarımbəndlər əlavə edilsin:

**"4.2.8.** 8.0.9.1-ci maddəsində, 8.0.9.2-ci maddəsində (hər iki halda), 8.0.10.2-ci və 8.0.11-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

**4.2.9.** 8.0.12-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi nəzərdə tutulur.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin akt-

larının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2015-ci il
№ 559

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanını "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1203-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 495 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17; 2006, № 7, maddə 593; 2014, № 3, maddə 248) 2.2-ci bəndinə "(ikinci halda)," sözlərindən sonra "12.0.26-1-ci," sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2015-ci il
№ 560

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1299-IVQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1299-IVQD nömrəli Qanununun

qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 68; 2012, № 6, maddə 541; 2013, № 5, maddə 493) 2.1-ci bəndindən ", 14.6-cı (birinci cümlədə)" sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2015-ci il
№ 556

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1215-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 612; 2001, № 7, maddə 462, № 10, maddə 640, № 12, maddə 755; 2002, №1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004, № 1, maddələr 19, 26, № 3, maddələr 138, 141, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608, № 11, maddə 909, № 12, maddə 1005; 2005, № 2, maddələr 67, 69, № 4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802, № 12, maddə 1101; 2006, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407, № 7, maddə 590, № 8, maddələr 662, 663, 674, 675, 679, № 9, maddə 743, № 11, maddələr 942, 945; 2007, № 1, maddə 11, № 2, maddə 87, № 3, maddə

230, № 7, maddə 715, № 8, maddələr 767, 769, № 11, maddələr 1110, 1116, 1120, № 12, maddə 1227; 2008, № 1, maddə 7, № 3, maddə 186, № 6, maddələr 504, 507, № 7, maddə 617, № 8, maddə 713, № 9, maddə 798, № 10, maddə 894, № 11, maddələr 969, 971, 980, № 12, maddələr 1060, 1061, 1062, 1065; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 5, maddə 330, № 7, maddələr 532, 535, 539, 540, 542, № 9, maddə 688, № 10, maddələr 776, 785, № 12, maddələr 979, 993; 2010, № 2, maddə 80, № 3, maddələr 180, 189, № 5, maddə 393, № 7, maddələr 606, 607, 610, № 8, maddələr 721, 725, № 10, maddələr 847, 854, № 11, maddə 972; 2011, № 3, maddələr 174, 175, № 6, maddələr 490, 511, 513, № 10, maddə 895, № 12, maddələr 1117, 1129; 2012, № 1, maddə 7, № 2, maddə 64, № 3, maddə 199, № 4, maddə 284, № 5, maddə 424, № 6, maddə 544, № 7, maddələr 682, 692, 698, № 11, maddələr 1097, 1113, № 12, maddə 1237; 2013, № 3, maddə 238, № 4, maddələr 371, 378, № 5, maddə 500, № 6, maddə 658, № 8, maddələr 892, 894, 907, № 9, maddələr 1042, 1057, 1058; 2014, № 2, maddələr 105, 112, № 4, maddələr 358, 364, № 5, maddə 477, № 6, maddə 634, № 7, maddələr 807, 815, № 9, maddələr 1027, 1032, № 10, maddə 1189, № 11, maddə 1378, № 12, maddə 1565; 2015, № 2 maddə 141; Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 529 nömrəli, 3 iyun tarixli 540 nömrəli, 5 iyun tarixli 546 nömrəli, 14 iyul tarixli 558 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.8-ci bəndə “163.0.12-ci,” sözlərindən sonra “164.0.8-ci (yol hərəkətinin təhlükəsizliyi sahəsində),” sözləri əlavə edilsin.

**2.** 2.43-cü bənddə “326-5-ci maddəsində” sözləri “163.0.1-ci, 164.0.8-ci (yol hərəkətinin təhlükəsizliyi sahəsi istisna olmaqla) və 326-5-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**3.** 3.3-cü bənddən “163.0.11-ci,” sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 10 avqust 2015-ci il
№ 577

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli 1270-IVQD nömrəliQanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 612; 2001, № 7, maddə 462, № 10, maddə 640, № 12, maddə 755; 2002, №1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004, № 1, maddələr 19, 26, № 3, maddələr 138, 141, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608, № 11, maddə 909, № 12, maddə 1005; 2005, № 2, maddələr 67, 69, № 4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802, № 12, maddə 1101; 2006, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407, № 7, maddə 590, № 8, maddələr 662, 663, 674, 675, 679, № 9,

maddə 743, № 11, maddələr 942, 945; 2007, № 1, maddə 11, № 2, maddə 87, № 3, maddə 230, № 7, maddə 715, № 8, maddələr 767, 769, № 11, maddələr 1110, 1116, 1120, № 12, maddə 1227; 2008, № 1, maddə 7, № 3, maddə 186, № 6, maddələr 504, 507, № 7, maddə 617, № 8, maddə 713, № 9, maddə 798, № 10, maddə 894, № 11, maddələr 969, 971, 980, № 12, maddələr 1060, 1061, 1062, 1065; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 5, maddə 330, № 7, maddələr 532, 535, 539, 540, 542, № 9, maddə 688, № 10, maddələr 776, 785, № 12, maddələr 979, 993; 2010, № 2, maddə 80, № 3, maddələr 180, 189, № 5, maddə 393, № 7, maddələr 606, 607, 610, № 8, maddələr 721, 725, № 10, maddələr 847, 854, № 11, maddə 972; 2011, № 3, maddələr 174, 175, № 6, maddələr 490, 511, 513, № 10, maddə 895, № 12, maddələr 1117, 1129; 2012, № 1, maddə 7, № 2, maddə 64, № 3, maddə 199, № 4, maddə 284, № 5, maddə 424, № 6, maddə 544, № 7, maddələr 682, 692, 698, № 11, maddələr 1097, 1113, № 12, maddə 1237; 2013, № 3, maddə 238, № 4, maddələr 371, 378, № 5, maddə 500, № 6, maddə 658, № 8, maddələr 892, 894, 907, № 9, maddələr 1042, 1057, 1058; 2014, № 2, maddələr 105, 112, № 4, maddələr 358, 364, № 5, maddə 477, № 6, maddə 634, № 7, maddələr 807, 815, № 9, maddələr 1027, 1032, № 10, maddə 1189, № 11, maddə 1378, № 12, maddə 1565; 2015, № 2 maddə 141; Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 529 nömrəli, 3 iyun tarixli 540 nömrəli, 5 iyun tarixli 546 nömrəli fərmanları) 3.3-cü bəndinə “221.2-ci,” sözlərindən sonra “224-1.2 ci,” sözləri və “296-cı,” sözlərindən sonra “298-1-ci,” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 avqust 2015-ci il
№ 582

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanını “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1168-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744; 2000, № 1, maddə 34; 2001, № 10, maddə 640; 2002, № 8, maddə 478; 2006, № 7, maddələr 590, 593; 2009, № 11, maddə 888; 2010, № 7, maddə 610; 2015, № 1, maddə 16) 7-ci hissəsinin birinci abzasında “Qanununun” sözündən sonra “110-cu maddəsinin beşinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti,” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 avqust 2015-ci il
№ 586

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanını "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1169-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17; 2006, №7, maddə 593; 2014, № 3, maddə 248; 2015, №7, maddə 828) 2.2-ci bəndindən "6.2.9-cu," sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 sentyabr 2015-ci il
№ 623

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 mart tarixli 69 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 mart tarixli 69 nömrəli Fərmanını "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1253-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 mart tarixli 69 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 3, maddə 161; 2011, № 6, maddə 509; 2013, № 9, maddə 1047; 2014, № 9, maddə 1046) 3.5-1-ci bəndinə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa" sözlərindən sonra "və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 sentyabr 2015-ci il
№ 625

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli qərarı ilə təsdiq edilmiş "Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli 1245-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 1 may tarixli 1196 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645; 2005, № 2, maddə 122, № 3, maddə 250; 2007, № 1, maddə 47; 2008, № 4, maddə 316; 2010, № 3, maddələr 255, 264; 2012, № 9, maddə 938, № 12, maddə 1362) ilə təsdiq edilmiş "Vəzifəli şəxsin və ya vətəndaşın dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi Qaydası"nın 5-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən, vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar aşağıdakılardır:

məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi;

Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə, eləcə də digər xüsusilə ağır və ağır cinayətlərə görə məhkum edilməsi (məhkumluğun ödənilməsindən və ya götürülməsindən asılı olmayaraq);

bu hissənin üçüncü abzasında göstərilən cinayətlərə görə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq, tutulması və ya barəsində hər hansı qətimkan tədbirinin seçilməsi (azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək);

Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin olması;

xarici ölkədə daimi yaşaması;

Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barədə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə və ya Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə müraciət etməsi və ya barəsində Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı icraata başlanılması;

yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhlükə törədən hərəkətlərinin aşkara çıxarılması;

yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.

Vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasından imtina edilməsi barədə qərarı təşkilat rəhbəri yoxlama tədbirlərinin nəticələrini nəzərə almaqla, fərdi qaydada qəbul edir. Vətəndaşın həmin qərardan şikayət vermək hüququ vardır.".

**Yaqub Eyubov**
**Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**

Bakı şəhəri, 15 iyul 2015-ci il
№ 267

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsinin şərh edilməsinə dair

**22 iyun 2015-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Rafael Qvaladze, Mahir Muradov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Vidadi Cəfərovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun,

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi Qail Məmmədovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Mürvət Həsənovun, Azərbaycan Respublikası Mərkəzi Bankının Ödəniş sistemləri və hesablaşma departamentinin böyük mütəxəssisi Tamerlan Rüstəmovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Sumqayıt Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 177.2.3-1-ci maddəsinin şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Sumqayıt şəhər Məhkəməsinin 18 dekabr 2014-cü il tarixli hökmü ilə T.Tağıyeva Cinayət Məcəlləsinin 177.1-ci maddəsi ilə ona görə məhkum edilmişdir ki, o, O.Əsgərovanın əl çantasından "Bank of Baku" bankının "qızıl kart" bankomat kartını üzərində kod yazılmış kağız ilə birlikdə oğurlayaraq, kartda olan 300 manat pulu ödəmə terminalından çıxarmaqla ona maddi ziyan vurmuşdur.

Sumqayıt şəhər Məhkəməsinin hökmündən apellyasiya protesti verilərək, hökmün ləğv edilməsi və cinayət işinin yeni məhkəmə baxışına göndərilməsi xahiş olunmuşdur. Apellyasiya protesti onunla əsaslandırılmışdır ki, T.Tağıyeva O.Əsgərovaya məxsus olan bankomat kartını və onun pin kodunu bankomata daxil edərək, bankomatın kompyuter sistemi vasitəsi ilə O.Əsgərovanın hesabında olan pulu çıxarıb gizli yolla talamışdır. Prokurorluğun qənaətinə görə, T.Tağıyevanın bu əməli Cinayət Məcəlləsinin177.1-ci maddəsi ilə deyil, həmin Məcəllənin 177.2.3-1-ci maddəsi ilə tövsif olunmalıdır.

Sumqayıt Apellyasiya Məhkəməsi Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsindəki "elektron məlumat daşıyıcılarından, yaxud informasiya texnologiyalarından istifadə etməklə törədilməsi" müddəasının hansı hallara şamil olunması ilə bağlı məhkəmə təcrübəsində fikir ayrılığı olduğundan, həmin maddənin şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 13-cü maddəsinin I və II hissələrinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur (Konstitusiyanın 29-cu maddəsinin I və II hissələri).

Mülkiyyət cinayət qanunvericiliyi ilə qorunan obyektlər sırasına daxil edilmiş və onun qorunması Cinayət Məcəlləsinin əsas vəzifələrindən biri kimi müəyyən olunmuşdur. Belə ki, Cinayət Məcəlləsinin 2.1-ci maddəsinə əsasən bu Məcəllənin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Cinayət qanununun başlıca prinsiplərindən biri olan qanunçuluq prinsipinə əsasən əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız Cinayət Məcəlləsi ilə müəyyən edilir (Cinayət Məcəlləsinin 5.1-ci maddəsi). Yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər (Cinayət Məcəlləsinin 7.1-ci maddəsi).

Bu vəzifələrin və prinsiplərin təmin olunması törədilmiş ictimai təhlükəli əməlin düzgün tövsif edilməsi zamanı mühüm əhəmiyyətə malikdir.

Müraciətdə qaldırılan məsələnin araşdırılması üçün, ilk növbədə cinayətlərin tövsifi anlayışının təhlil edilməsi zəruridir.

Cinayət hüququnda cinayətin tövsifi dedikdə, törədilmiş ictimai təhlükəli əməldə müvafiq cinayət tərkibinin müəyyən edilməsi başa düşülür. Tövsif törədilmiş əməlin faktiki hallarının cinayət tərkibinin əlamətlərinə dəqiq uyğun gəlməsinin müəyyən edilməsinə yönəlmiş ardıcıl və məntiqi prosesdir. Buna görə də onun ilkin şərti törədilmiş əməlin hüquqi əhəmiyyət kəsb edən faktiki hallarının müəyyən edilməsindən və qiymətləndirilməsindən ibarətdir.

Törədilmiş əməlin faktiki halları müəyyən edilərkən cinayətin obyektinə, obyektiv cəhətinə, subyektinə və subyektiv cəhətinə görə istənilən cinayət tərkibinə xas olan əlamətlərin təsnifatı aparılır. Bu zaman əməlin xüsusiyyətləri, subyekti müəyyən edilir, onun motiv və məqsədləri aydınlaşdırılır, nəticələrinin xarakteri müəyyənləşdirilir. İş üzrə əhəmiyyətli olan bütün faktiki hallar müəyyən edildikdən sonra şəxsin törətdiyi, qanunla qadağan olunmuş ictimai təhlükəli əməlin tövsifi üçün müvafiq cinayət hüquq norması tətbiq edilir.

Cinayətin tövsifinin digər şərti törədilmiş ictimai təhlükəli əməlin tərkibinin seçilmiş normada təsvir edilən tərkibə uyğunluğunun müəyyən edilməsindən ibarətdir.

Konstitusiya Məhkəməsinin formalaşdırdığı hüquqi mövqeyə əsasən hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər. (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 17 mart 2011-ci il tarixli Qərarı).

Göstərilənlərə əsaslanaraq, Konstitusiya Məhkəməsinin Plenumu talama cinayətlərinin tərkibinin müəyyən edilməsini vacib hesab edir.

Mülkiyyət əleyhinə olan cinayətlər sırasında talama cinayətləri öz yüksək ictimai təhlükəliliyinə görə seçilir. Mülkiyyətin müxtəlif obyektlərinə qəsd edən talama cinayətləri çox vaxt əmlak cinayətləri adlandırılır. Belə cinayətlər təqsirkarın maddi aləmin əşyalarını qanuna zidd olaraq götürməsində, özünün və ya başqalarının xeyrinə ələ keçirməsində ifadə olunur.

Bu baxımdan, talama cinayətlərinin predmetini istehlak dəyərinə malik olan istənilən maddi-əmtəə dəyəri, habelə istənilən maddi dəyərlərin ümumi ekvivalenti olan pul təşkil edə bilər. Talama cinayətləri fəal hərəkətlə törədilir.

Talamanın obyektiv cəhəti mülkiyyət münasibətlərinə qəsddən ibarətdir. Hansı formada törədilməsindən asılı olmayaraq, talama özgənin əmlakını götürmədən və (və ya) özünün, yaxud başqa şəxslərin xeyrinə keçirmədən ibarətdir.

Talamanın istənilən forması subyektiv cəhətdən yalnız birbaşa qəsd formasında təqsirlə xarakterizə olunur. Təqsirkar özgənin əmlakını qanunsuz və əvəzsiz götürdüyünü və (və ya) özünün və ya başqa şəxsin xeyrinə keçirdiyini dərk edir, bunun əmlakın mülkiyyətçisinə (və ya başqa sahibinə) real maddi ziyan vuracağını qabaqcadan görür və belə nəticənin baş verməsini arzu edir. Talamanın subyektiv cəhətinin daha bir zəruri əlaməti tamah məqsədinin olmasıdır.

Oğurluq talama cinayətlərinin bir növü kimi çıxış edir. Cinayət qanunvericiliyinə görə oğurluq özgənin əmlakının gizli olaraq talanmasıdır (Cinayət Məcəlləsinin 177.1-ci maddəsi).

Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsinin köhnə redaksiyasında oğurluğun tövsifedici əlaməti kimi yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədilməsi nəzərdə tutulmuşdu. İstintaq və məhkəmə təcrübəsində həmin maddənin tətbiqi ilə bağlı müəyyən çətinliklər yarandığından, Azərbaycan Respublikası Prokurorluğu sorğu ilə Konstitusiya Məhkəməsinə müraciət edərək həmin maddənin şərh edilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun "Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsinin şərh edilməsinə dair" 9 iyun 2011-ci il tarixli Qərarında göstərilmişdir ki, ictimai həyatın iqtisadi və sosial sahələrində baş verən dəyişikliklər cinayətkarlığın strukturunda və dinamikasında yeni tendensiyaları şərtləndirmişdir. Cinayətlərin yeni növlərinin, cinayətkar fəaliyyətin yeni forma və vasitələrinin meydana gəlməsi belə əməllərə görə cinayət

məsuliyyətinin müəyyənləşdirilməsini zəruri edir. Belə əməllərə son illərin təcrübəsində yer alan, yeni texnologiyalardan istifadə etməklə özgənin əmlakını saxlanc yerlərindən, yaxud neft və ya qaz boru kəmərlərindən talamanı və s. aid etmək olar. Məsələn, "neft və qaz boru kəmərləri" anlayışları oğurluq zamanı Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsində nəzərdə tutulan "saxlanc yeri"nin bütün əlamətlərini özündə ehtiva etsə də, talamanın bu formasına görə cinayət məsuliyyəti qanunvericilikdə öz əksini tapmamışdır. Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 177-ci maddəsinin dispozisiyasının müasir dövrün tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsini məqsədə müvafiq hesab etmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun həmin Qərarda formalaşdırdığı hüquqi mövqe nəzərə alınaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 30 aprel tarixli Qanunu ilə Cinayət Məcəlləsinə 177.2.3-1-ci maddə əlavə edilmişdir.

Həmin maddənin dispozisiyasında iki əməl müəyyənləşdirilmişdir:

– oğurluğun elektron məlumat daşıyıcılarından istifadə edilməklə törədilməsi;

– oğurluğun informasiya texnologiyalarından istifadə edilməklə törədilməsi.

Bununla əlaqədar olaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, bank kartlarının oğurlanması, başqa yolla ələ keçirilməsi və ya saxtalaşdırılması və həmin kartlardan istifadə etməklə bankomatlardan özgəsinə məxsus nağd pul vəsaitlərinin talanması, yaxud da hər hansı pul ödənişlərinin aparılması öz ictimai təhlükəliliyinə, törədilmə üsulu və vasitəsinə görə sadə oğurluqdan fərqlənir.

Konstitusiya Məhkəməsinin Plenumu bankomata özgənin kart və identifikasiya nömrəsini daxil etməklə oradan pul vəsaitlərinin talanması əməlinin tövsifində qeyri-müəyyənliyin aradan qaldırılması üçün bankomat və bank kartının elektron məlumat daşıyıcıları olub-olmaması məsələsinə aydınlıq gətirilməsini zəruri hesab edir.

İlk növbədə, ödəniş kartlarının təyinatı müəyyənləşdirilməli və bunun əsasında həmin kartdan istifadə etməklə oğurluq cinayətinin törədilməsinin xüsusiyyətləri təhlil edilməlidir.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən 10 iyul 2012-ci il tarixində qəbul edilmiş "Ödəniş kartlarının emissiyası və istifadəsi qaydaları"nın 2.1.1-ci bəndinə əsasən ödəniş kartı nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş alətidir. Həmin qaydaların 2.1.6-cı və 2.1.19-cu bəndlərinə görə kart hesabı kart vasitəsilə həyata keçirilən əməliyyatların uçotunun aparılması üçün açılan cari bank hesabıdır. Ödəniş kartlarının hazırlanması zamanı kartda olan elektron daşıyıcıya (çipə) və (və ya) maqnit lentə kart istifadəçisi haqqında məlumatlar yüklənir.

Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş cinayət, şəxs tərəfindən talama və ya müxtəlif qanunsuz yollarla əldə edilmiş kartdan və onun identifikasiya nömrəsindən (pin kodundan) istifadə etməklə törədilməsidir. Bu əməlin obyektiv cəhəti gizli yolla elektron məlumat daşıyıcısı olan bank kartını və onun şifrəsini əldə etmək və sonradan kartı bakomata daxil edib, pin kodu yığmaqla kart sahibinin hesabından pul vəsaitini çıxarmaqdır. Bu zaman, cinayəti törədən şəxsin niyyəti bankomatın fəaliyyətinə, əməliyyat sisteminə müdaxilə etmək deyil, yalnız əldə etdiyi imkandan istifadə etməklə kart sahibinin hesabından pul vəsaitini talamaqdır. Bu halda, zərərçəkmiş şəxs kartı oğurlanmış şəxsdir, çünki oğurlanmış və başqa qanunsuz yolla ələ keçirilmiş hesab kartını bankomata daxil edərkən şəxs bankomatın seyfindən deyil, həmin kartın sahibinin hesabından oğurluq edir.

Ödəniş kartı ilə həyata keçirilən bütün bank əməliyyatları kartın sahibi və emitent (bank)

arasında bağlanmış müqavilə əsasında və çərçivəsində həyata keçirilir. Kartı bankomata daxil edərək və klaviatura ilə müvafiq əməliyyatlar apararaq, təqsirli şəxs bilavasitə bankın seyfinə daxil olmur, sadəcə bank-emitentin əməliyyat sisteminə qoşularaq hesaba müdaxilə edir və banka müəyyən əməliyyatın aparılması üçün göstəriş verir. Burada bankomatın yarılmasından fərqli olaraq, saxlanc yerinə (bankomatın seyfinə) fiziki daxil olma baş vermir.

Konkret şəxşin adına olan və oğurlanmış bank kartından istifadə etməklə nağd pul vəsaitlərinin oğurlanması zamanı, şəxs hər hansı texnologiyadan istifadə etmir, sadəcə olaraq ona məlum olan identifikasiya nömrəsini (pin kodu) bankın kompyuter sisteminə daxil etməklə kart sahibinin pul vəsaitini ələ keçirməyə nail olur, yaxud həmin şəxsin pul vəsaiti hesabına müxtəlif ödənişləri həyata keçirir.

Konstitusiya Məhkəməsinin Plenumu yuxarıda göstərilənləri nəzərə alaraq belə qənaətə gəlir ki, ödəniş kartında şəxs haqqında və onun bank hesabında olan pul vəsaiti barədə məlumat əks olunduğundan, bu kart elektron məlumat daşıyıcısı kimi qiymətləndirilməli, ondan istifadə edilməklə törədilən oğurluq cinayəti isə Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsi ilə tövsif olunmalıdır.

Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsində nəzərdə tutulmuş "informasiya texnologiyaları" müddəası isə informasiyanın ötürülməsi, qəbulu və emalı üzrə proseslər zamanı alət və ya vasitələr toplusunu nəzərdə tutur. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən informasiya texnologiyaları – informasiya prosesləri zamanı, o cümlədən hesablama və rabitə texnikasının tətbiqi ilə istifadə edilən üsul və vasitələr sistemidir.

Oğurluğun informasiya texnologiyalarından istifadə edilməklə törədilməsi xüsusi proqramlardan və qurğulardan istifadə etməklə bankomatların, nəticə etibarı ilə bankın kompyuter sisteminə daxil olub həm nağd pul vəsaitlərini, həm də müxtəlif növ ödənişləri həyata keçirməklə, yaxud da pul vəsaitlərini bankın hesabından öz şəxsi hesabına köçürməklə talamanı ehtiva edir.

Qeyd edilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, ödəniş kartında şəxs və onun bank hesabında olan pul vəsaiti barədə məlumat əks olunduğundan, bu kart elektron məlumat daşıyıcısı hesab edilməli və ondan istifadə edilməklə törədilən oğurluq cinayəti Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsi ilə tövsif olunmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Ödəniş kartında şəxs və onun bank hesabında olan pul vəsaiti barədə məlumat əks olunduğundan, bu kart elektron məlumat daşıyıcısı hesab edilməli və ondan istifadə edilməklə törədilən oğurluq cinayəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsi ilə tövsif olunmalıdır.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Fərhad Abdullayev**